Rəsmi dövlət qəzeti




# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 166 (8189) CÜMƏ AXŞAMI, 1 avqust 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




## Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır

## Prezident İlham Əliyev qarşıdakı dövr üçün yeni hədəfləri bəyan etdi

İyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında sosial-iqtisadi sahə ilə bağlı müşavirə keçirilib.

AZƏRTAC xəbər verir ki, müşavirədə çıxış edən **Prezident İlham ƏLİYEV** dedi:

- İlin əvvəlində qarşımıza qoyduğumuz vəzifələr icra edilir, ölkəmiz inamla inkişaf edir, böyük infrastruktur layihələri icra olunur. Ümumi iqtisadi vəziyyət çox müsbətdir və bu, özünü rəqəmlərdə də əks etdirir.

İqtisadiyyatımız bu ilin altı ayında 2,4 faiz, qeyri-neft sektorumuz 3,2 faiz artmışdır. Ən sevindirici göstərici qeyri-neft sənayesindədir. Burada artım 15,7 faizdir. Bu, onu göstərir ki, son illərdə sənayeləşmə siyasətimiz gözəl nəticələr verir. Sənayemizin qeyri-neft sektoru rekord addımlarla irəliləyir. Bu sahədə, əlbəttə ki, bu il istifadəyə verilmiş iri müəssisələrin rolu kifayət qədər böyükdür. Bildiyiniz kimi, karbamid zavodu, "SOCAR-Polymer" zavodu istifadəyə verilmişdir və bu zavodların istehsal həcmi kifayət qədər böyükdür. Eyni zamanda, kiçik və orta sahibkarlığın inkişafı üçün lazımi addımlar atılır. Beləliklə, altı ayda qeyri-neft sənayemizin 15,7 faiz artımı, əlbəttə ki, çox sevindirici haldır.

Kənd təsərrüfatında da rekord göstərici əldə edilib. Kənd təsərrüfatı bu ilin altı ayında 13 faiz artmışdır, xüsusilə bitkiçilik hesabına. Bitkiçilik 25 faiz artmışdır. Yəni, bu, onu göstərir ki, qoyulan investisiyalar, aparılan islahatlar, verilən subsidiyalar, kənd təsərrüfatına elmi yanaşma öz nəticəsini verməkdədir. Əminəm ki, gələcək illərdə kənd təsərrüfatı dayanıqlı şəkildə inkişaf edəcək və beləliklə, həm məşğulluğun, eyni zamanda, kənd təsərrüfatı ixracının artırılmasına xidmət göstərəcək.

Ticarət dövriyyəmiz də kifayət qədər artıb - 20 faizdən çox. Qeyri-neft ixracımız 15 faiz artmışdır. Altı ayda ölkə iqtisadiyyatına 6 milyard dollardan çox sərmayə qoyulub. Bu sərmayənin böyük hissəsi qeyri-neft sektoruna qoyulan sərmayədir. İnflyasiya cəmi 2,5 faizdir. Bu da yaxşı göstəricidir, əhalinin gəlirləri 6,6 faiz artmışdır. Büdcə daxilolmaları Vergilər Nazirliyinin, Dövlət Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox artmışdır, yəni, plandan əlavə yığılmışdır və bu da aparılan islahatların təzahürüdür.

Bir sözlə, bütün iqtisadi göstəricilər onu deməyə əsas verir ki, biz düzgün istiqamətdə inkişaf edirik və qarşıda duran bütün vəzifələri icra edirik.

Bildiyiniz kimi, bu ilin əvvəlində çox böyük sosial paket təsdiqləndi və bu sosial təşəbbüslər 4 milyondan çox insanı əhatə edir. Çox önəmli addımlar atılmışdır - minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə qaldırılmışdır. Birinci dəfə 40 faiz, ikinci dəfə də 40 faiz artmışdır, bu, artıq sentyabr ayından ödəniləcək. Minimum əməkhaqqı təxminən 2 dəfə qaldırılıb, 130 manatdan 250 manata çatdırılıb. Pensiya isə 116 manatdan 200 manata çatdırılıb. Bu da çox əhəmiyyətli artımdır və əlbəttə ki, buna böyük maliyyə vəsaiti lazımdır. Biz əlavə gəlirlərimizin demək olar ki, tam həcmini sosial sahəyə yönəldirik. Çünki sosial sahə bizim üçün prioritet sahədir və hər zaman bu sahə diqqət mərkəzində olub, bu gün də belədir. Azərbaycan vətəndaşlarının rifahı, onların yaşayış səviyyəsi daim diqqət mərkəzindədir və imkan daxilində biz bu məsələləri həll edirik. Onu da bildirməliyəm ki, bu sosial paketin həyata keçirilməsi üçün çox böyük maliyyə vəsaiti tələb olunur. Biz buraya təxminən 2 dəfə artımın olduğu sosial müavinətləri də əlavə edə bilərik. Məcburi köçkünlərə verilən müavinət 50 faiz artmışdır, problemli kreditlərlə bağlı olan məsələ öz həllini tapmışdır, digər sosial təşəbbüslər irəli sürülmüşdür və bu, bir daha onu göstərir ki, bizim siyasətimiz sosialyönümlü siyasətdir.

Bu proqramın və təşəbbüslərin həyata keçirilməsi ilə əlaqədar görülmüş işlərlə bağlı məlumat üçün söz verilir Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayevə.

**Nazir Sahil BABAYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Siz ilin əvvəlində bəyan etmişdiniz ki, bu il sosial inkişafla bağlı çox fərqli bir il olacaqdır. Həqiqətən də Sizin təşəbbüslərinizlə iki böyük sosial islahat paketi qəbul edildi. Bu sosial islahat paketləri - birinci paket 3 milyon insanımızı əhatə etdi və ümumi illik maliyyə tələbi 1,6 milyard manata bərabər idi. Bu sosial islahat paketi artıq tam şəkildə icra olundu və həm pensiyaçılarımızın, həm də işləyən vətəndaşlarımızın əməkhaqları artırıldı. İkinci sosial paketlə bağlı hazırlıq işləri artıq yekunlaşıb və sentyabr ayının 1-dən etibarən minimum əməkhaqqının 250 manata çatdırılması, dövlət sektorunda çalışanlar əlavə 400 min insanın kateqoriyalarından asılı olaraq 20-50 faiz aralığında əməkhaqlarının artırılması, eyni zamanda, oktyabrın 1-dən etibarən 750 min pensiyaçının pensiyasının artırılması ilə bağlı bütün hazırlıq işləri artıq yekunlaşdırılıb. Ümumilikdə hər iki paketin ümumi dəyəri cari il üçün 2,3 milyard manatdır, növbəti il üçün 3 milyard manatdır və 4,2 milyon insanımızı əhatə edəcəkdir. Minimum əməkhaqqında demək olar ki, iki dəfə artım, minimum pensiyada 72 faizlik artım nəticəsində Azərbaycanda minimum pensiya MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci göstərici olacaqdır. Minimum əməkhaqqı isə yenə də alıcılıq qabiliyyəti üzrə MDB məkanında ikinci göstərici olacaqdır.

Əlavə olaraq, tapşırığınıza əsasən müavinət və təqaüdlərin artırılması sahəsində görülən işlər ümumilikdə 1,3 milyon insanımızı əhatə etdi və bunlardan 300 mindən artığı məhz əlilliyi olan şəxslər idi, 500 minə qədəri məcburi köçkün, 100 mindən artığı tələbə və gənclər idi. Ümumilikdə baxdıqda bu müavinət və təqaüdlər əhalinin sosial cəhətdən ən həssas təbəqəsini əhatə etdi və onların gəlirləri çox əhəmiyyətli şəkildə artırıldı.

Sizin digər bir sosial təşəbbüsünüz olaraq, ötən ilin sonlarında qanunvericiliyə edilmiş dəyişiklik nəticəsində ölkəmizdə ciddi şəkildə sosial sığorta amnistiyası elan edildi və 2006-cı ildən 2018-ci ilədək sosial sığorta sahəsində cüzi ödəniş etmiş şəxslərə belə 25 il sığorta stajı tətbiq edildi. Bunun nəticəsində yanvar ayının 1-dən etibarən avtomatik pensiya təyinatına başlanıldı. Avtomatik pensiya təyinatı bu gün artıq 13 min insanı əhatə edir. Onlar hər hansı bir ünvana getmədən, hər hansı bir müraciət etmədən pensiya təyinatlarını ən səmərəli və sürətli şəkildə əldə ediblər. Bu siyasətin davamı olaraq bu sahədə şəffaflığın və səmərəliliyin təmin edilməsi üçün il ərzində pensiyaya çıxan vətəndaşlarımızın 80 faizi əhatə olunacaqdır. Digər avtomatlaşdırma tədbirləri də davam etdiriləcəkdir. O cümlədən müavinət və təqaüdlərin təyinatında avtomatlaşdırma tədbirləri bitdikdən sonra cari il üçün 180 min müraciətin tam şəkildə, praktik qaydada, vətəndaşların hər hansı bir ünvana getmələrinə ehtiyac olmadan təmin edilməsi həyata keçiriləcəkdir.

**Prezident İlham ƏLİYEV:** Özünüməşğulluq Proqramı ilə bağlı hansı işlər görülür? Çünki ilin əvvəlində biz planlaşdırırdıq ki, təqribən 7 min insanı əhatə edəcək, amma həyat göstərir ki, rəqəm artır və tələbat da artır. Yəni, bu sahədə hansı işlər görülüb və proqramın əhatə dairəsi nə qədər genişlənəcəkdir?

**Nazir Sahil BABAYEV:** Cənab Prezident, Sizin tapşırığınızla ötən il biz 6 min ailəni əhatə edə bildik və 6 min ailəyə mikro və kiçik biznesə başlaması üçün aktivlər təmin edildi. Sizin göstərişinizə əsasən, bu il üçün İşsizlikdən Sığorta Fondunun büdcəsinə müvafiq dəyişiklik edildi və əlavə vəsaitin cəlb olunması nəticəsində 10 min ailənin bu il Özünüməşğulluq Proqramı ilə əhatə edilməsi planlaşdırılır. Müraciətlər çoxdur, əhalinin bu proqrama çox böyük marağı, çox böyük rəğbəti var. Cari ilin ilk 6 ayı ərzində 45 minə yaxın müraciət gəlib. Bunları nəzərə alaraq, ötən ildən növbədə qalan insanlara və bu il müraciət edənlərin arasında isə əlilliyi olan şəxslərə, məcburi köçkünlərə, şəhid ailələrinə və həssas kateqoriyadan olan digər insanlara üstünlük verilir. Artıq 4 min nəfər bu il təlimlərdən keçirilib, 1100 nəfər aktivlər əldə edib.

*Ardı 2-3-cü səh.*

## Azərbaycan-Fransa iqtisadi əlaqələrinin səviyyəsi məmnunluq doğurur

### İki ölkə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensial var

Azərbaycanın Avropada siyasi, iqtisadi və mədəni baxımdan sıx əlaqələri olan ölkələrdən biri Fransadır. Rəsmi Paris də həmişə Cənubi Qafqazın lider ölkəsi kimi Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verib. İndiyədək Azərbaycan və Fransa prezidentlərinin qarşılıqlı səfərləri siyasi anlaşmanın yüksək səviyyədə olmasını təsdiqləməklə yanaşı, digər sahələrdə də əlaqələrin dərinləşməsinə xidmət edib.

Hazırda iki dövlət arasında iqtisadi əlaqələrin yüksək səviyyədə olmasının səbəbi də məhz dərin siyasi anlaşmadır. Xatırladaq ki, Fransa öz iqtisadi inkişafına görə dünyanın aparıcı sənaye dövlətlərinin "böyük yeddiliyinə" daxildir. Ümumi iqtisadi göstəricilərinə görə Avropada Almaniyadan sonra ikinci olan bu ölkə dünyanın 5-ci iqtisadi gücüdür. O, dünyada ÜDM-in 5 faizini, ticarətin isə 6 faizini formalaşdırır.

*Ardı 4-cü səh.*

## Pambıq yenidən "ağ qızıl"a çevrilir

Pambıq bizim üçün yad bitki deyil. Bu zəhməti və dəyəri çox bitkinin Azərbaycanda əkilib-becərilmə tarixi ötən əsrin əvvəllərinə gedib çıxır.



Amma pambığın Azərbaycanın təkcə aqrar sektoru yox, bütünlükdə iqtisadiyyatı üçün sözün bütün mənalarında qızıl dövrü var ki, o da keçmiş SSRİ tərkibində olduğumuz zamana təsadüf edir. Xüsusən Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi həmin illər Azərbaycan kənd təsərrüfatında, o cümlədən pambıqçılıqda rekord göstəricilərə nail olmuşdur. Əkin sahələri və su ehtiyatları elə də çox olmayan Azərbaycan üçün 1 milyon tondan çox pambıq istehsal etmək hətta həmin illər üçün sıradan bir göstərici deyildi.

O illər pambıq təsərrüfatlar, eləcə də kolxozçular üçün də gəlirli bitki sayılırdı. Neçə-neçə kəndlər məhz bu sahədən gələn qazanc hesabına abadlaşmış, minlərlə kəndli pambıqdan götürdüyü gəlirlə özünə güzəran qurmuşdur. Pambıqçının şöhrəti, hörməti isə bir ayrı mövzunun söhbətidir.

Yeri gəlmişkən qeyd edək ki, pambıqçılıq təkcə Azərbaycanda geniş yayılmamışdır. İndinin özündə pambıqçılıq dünyanın hətta aparıcı ölkələrinin aqrar sektorunda gəlirli sahələrdən sayılır. ABŞ, Avstraliya, Braziliya, Çin, Hindistan, Meksika kimi ölkələr hazırda əsas pambıq istehsalçıları hesab olunurlar.

*Ardı 6-cı səh.*

### 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

## Ana dilim - qürur yerim

Hər sözümüz tariximizə bir açardır. Xalqımızın keçmişi, ulularımızın həyat tərzi, məişəti, məqsədi, arzuları onlarda ifadəsini tapdı. Ana dilimiz zamana yol yoldaşı oldu. Dünya sivilizasiyasının ən nadir nümunələrindən olan Qobustan və Gəmiqaya təsvirləri də xalqımızın zəngin milli-mənəvi dəyərlərinin nümunələridir. Onları yaradan xalqın həmin vaxtlar müxtəlif yazı növlərindən, əlifbalardan istifadə etdiyi şübhəsizdir. Qədim Manna dövlətində yerli yazı növündən, həmçinin heroqliflərdən istifadə olunduğunu tarixi mənbələr də sübut edir. Məlumdur ki, ulu əcdadlarımızın - albanların 52 hərfdən ibarət əlifbası olmuşdur.

### Tarixin keşməkeşlərində...

Ana dilimiz tarixin ağır sınaqlarından keçdi. Onun varlığından əndişələnənlər, onu əsarətində saxlamaq istəyən yadelli hökmdarlar oldu. Azərbaycanın müstəqilliyinə qəsd ediləndə onun doğma dilini də sıxışdırdılar, rəsmi dövlət dili olmağa qoymadılar. Tarixin elə dönəmləri oldu ki, bu xalqa ədəbi-bədii nümunələrini belə öz dilində yazmağa imkan vermədilər.

*Ardı 5-ci səh.*

# Azərbaycan dünya miqyasında uğurla

## Prezident İlham Əliyev qarşıdakı



*Əvvəli 1-ci səh.*

Əlavə olaraq BMT-nin İnkişaf Proqramı layihəyə cəlb olunub, 1000 nəfərə yaxın ailə məhz BMT-nin İnkişaf Proqramı tərəfindən təmin ediləcəkdir. Sizin göstərişlərinizə uyğun olaraq, Dünya Bankı ilə müzakirələr yekun mərhələyə çatıb. Sentyabr ayında Dünya Bankı layihə təklifini Azərbaycan Hökumətinə təqdim edəcək və gələn ildən bu layihəyə qoşulacaq. Ümumilikdə layihənin ilkin göstəriciləri çox müsbətdir. Əlbəttə, ikiillik dövrün yekun monitorinqinin nəticələrini götürmək olar, amma, ilk altı ayın göstəriciləri göstərir ki, əhalinin bu proqrama həm böyük rəğbəti var, həm də bu mexanizmdən ciddi şəkildə yararlanır.

**Prezident İlham ƏLİYEV:** Bəli, biz bu məsələləri beynəlxalq maliyyə qurumları ilə də müzakirə etmişik. Dünya Bankı ilə bu ilin əvvəlində müzakirələr aparılıb və biz onları bu proqrama dəvət etdik. Dünya Bankının bu proqramda iştirakı təbii ki, bizə əlavə maliyyə resursu verəcək.

May ayında açılan DOST mərkəzinin fəaliyyəti haqqında nə deyə bilərsiniz?

**Nazir Sahil BABAYEV:** Cənab Prezident, Sizin iştirakınızla DOST mərkəzi açıldıqdan sonra həqiqətən də çox böyük bir rəğbət toplayıbdır. İki aydan bir az artıq dövrdə 20 min vətəndaşımız bu mərkəzə müraciət edib. Hər bir müraciətçi xidmət gördükdən sonra orada elektron qaydada xidmətin səviyyəsini qiymətləndirir. Bu günə vətəndaşlarımızın tam məmnunluq səviyyəsi 93 faizi keçibdir, 4 faiz də əlavə olaraq qismən məmnun vətəndaşlarımızdır. Biz bu göstəricini daim bu şəkildə saxlamağa çalışacağıq. Bu gün artıq 126 xidmətin hər biri DOST mərkəzində göstərilir. Sizin göstərişlərinizə uyğun olaraq ilin sonunadək növbəti mərkəzin açılması istiqamətində ciddi iş aparılır. Daha 3 mərkəzin açılması üçün işlər görülür. Düşünürük ki, ilin sonuna və növbəti ilin birinci rübünə bu 3 mərkəz də açılacaq və beləliklə, biz Bakının 80 faizini əhatə etmiş olacağıq. Növbəti mərhələdə daha bir mərkəz açdıqdan sonra Bakı şəhəri tam əhatə olunacaq. Regionlarımızda da DOST mərkəzlərinin açılması sahəsində iş başlayacaq. DOST mərkəzinin, DOST konsepsiyasının bir mexanizmi də elektron və onlayn xidmətlərin göstərilməsi məsələsidir. Bununla bağlı orada çox müasir "Çağrı mərkəzi" qurulub. Vətəndaşlarımızdan gələn müraciətlərin sayından və onların məmnunluq səviyyəsindən görünür ki, "Çağrı mərkəzi" vasitəsilə bir çoxları öz xidmətlərini əldə edirlər, hətta mərkəzə gəlməyə də ciddi ehtiyac duymurlar. Düşünürük ki, DOST mərkəzi Sizin növbəti təşəbbüsünüz olaraq Azərbaycanın bir brendinə çevriləcəkdir.

May ayında Bakı şəhərində Beynəlxalq Sosial Təminat Agentliyinin Avropa Forumu keçirildi və 55 ölkənin sosial təminat agentliklərinin rəhbərləri DOST mərkəzini ziyarət etdilər. Onların da ilkin qiymətləndirməsi çox yüksək oldu. İnanırıq ki, qısa müddət ərzində bu şəbəkə genişləndirilərək ölkə ərazisini tam şəkildə əhatə edəcək.

**Prezident İlham ƏLİYEV:** Bu ilin əvvəlində regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı qəbul edilib. Bu, çox genişmiqyaslı proqramdır. Baxmayaraq ki, son illərdə infrastruktur layihələri ilə bağlı bir çox işlər görülmüşdür, bugünə qədər həllini tapmayan məsələlər də bu proqramın icrası nəticəsində öz həllini tapacaq. Bildiyiniz kimi, bu sahə bizim üçün prioritet sahədir. Həm elektrik enerjisi ilə təchizat, qazlaşdırma, içməli su sahələrində, həm də suvarma layihələrinin icrası istiqamətində bir çox işlər görülüb və gözəl nəticələr var. Beləliklə, Azərbaycanda qazlaşdırmanın səviyyəsi 96 faizə yaxınlaşır. Nadir ölkələrdə bu qədər qazlaşdırma aparılır. Elektrik enerjisi ilə bağlı böyük generasiya gücləri yaradılmışdır və Azərbaycan bu baxımdan yenə də ön sıralardadır. Çünki biz öz enerji təhlükəsizliyimizi təmin edə bilmişik. Bu il mövcud stansiyalarda aparılan yenidənqurma işləri nəticəsində əlavə generasiya gücü əldə ediləcək. Bütün bölgələrimizdə içməli su layihələri icra edilir və bu il də bir neçə şəhərin içməli su problemi həll olunacaq. Buna da çox böyük diqqət göstərilir. Hər il təxminən 100 min hektar torpağın suvarılması ya yaxşılaşır, ya da ki, suvarılmayan torpaqlara su çəkilir. Bu da çox önəmli məsələdir və bu məsələ ilə bağlı əlavə addımlar atılacaq.

Bütövlükdə ilin əvvəlindən icra edilən proqramın əsas göstəriciləri haqqında danışmaq üçün İqtisadiyyat naziri Şahin Mustafayevə söz verilir.

**Nazir Şahin MUSTAFAYEV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident, həqiqətən Siz 2004-cü ildən başlayaraq ölkədə regionların sosial-iqtisadi inkişafına böyük diqqət yetirirsiniz və apardığınız sosial-iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri də məhz regionların tarazlı və davamlı inkişafıdır.

Qeyd etdiyiniz kimi, artıq bu ilin əvvəlində təsdiq etdiyiniz regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramının icrasına başlanılmışdır. Üç dövlət proqramı böyük uğurla icra olunmuşdur və yekun nəticə olaraq əhalinin rifahının yüksəlməsinə yönəlmiş dövlət proqramlarının icrası, sözün əsl mənasında, Azərbaycanın regionlarının simasını köklü surətdə dəyişmişdir. Regionların indiki vəziyyəti 15 il bundan əvvəlki vəziyyətindən həqiqətən, fundamental dərəcədə fərqlənir. Bu inkişafda qəbul etdirdiyiniz proqramların rolu müstəsna əhəmiyyət kəsb edir.

Bu ilin əvvəlində təsdiqlədiyiniz dördüncü proqramın icrası uğurla davam etdirilir. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulan vəsaitlərin böyük hissəsi, ilk növbədə, bu proqramın əsas istiqaməti olan infrastruktur layihələrinin icrasına yönəldilmişdir. Eyni zamanda, bu proqram regionlarda kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsi, infrastruktur təminatının yaxşılaşdırılması ilə yanaşı, sosial infrastrukturun yaxşılaşmasına da yönəldilmiş bu proqram ciddi nəticələr verir. Həmçinin dövlət proqramının icrası kənd yerlərini də əhatə etməklə məşğulluğun təmin olunması istiqamətində atılan vacib addımlardan biridir. Bu gün artıq qeyd etmək olar ki, regionlarda yaradılan biznes mühiti, kənd təsərrüfatı və sənayenin inkişafı üçün infrastruktur artıq öz bəhrəsini verməkdədir və bölgələrdə məşğulluğun təmin olunmasında əsas rol oynayır.

Mən regionlarda yaradılmış 9 sənaye parkı və məhəllələri haqqında qısa məlumat vermək istəyirəm. Artıq sənaye parkları və məhəllələrində 78 rezident qeydiyyatdan keçib, 45 rezident artıq fəaliyyətə başlayıb. Nəzərdə tutulan 6,4 milyard manat sərmayədən artıq 5,7 milyard manatı faktiki olaraq qoyulub və bu layihələrin yerinə yetirilməsi nəticəsində 11 mindən çox yeni iş yeri açılıb. Eyni zamanda, bu layihələrin fəaliyyəti nəticəsində artıq 1,5 milyard manatlıq məhsul istehsal olunub ki, onun da 300 milyon manatlıq hissəsi ixraca yönəlib.

Həmçinin tapşırığınızla regionlarda iş yerlərinin açılması və məşğulluğun təmin olunması istiqamətində kənd təsərrüfatı üçün vacib olan aqroparkların və iri fermer təsərrüfatlarının yaradılması istiqamətində ciddi işlər aparılır. Tapşırığınıza uyğun olaraq 51 aqroparkın yaradılması istiqamətində ciddi addımlar atılıb. Artıq nəticələr var. İyirmi iki aqropark faktiki fəaliyyətdədir, bu ilin sonuna qədər 11 aqroparkın fəaliyyətə başlamasını gözləyirik. Bu layihələrin icrası nəticəsində ölkə iqtisadiyyatına 2,4 milyard manat əlavə investisiya qoyulacaqdır. Eyni zamanda, bu layihələrin icrası nəticəsində 4 mindən çox yeni iş yeri yaradılacaqdır.

Həmçinin investisiyaların təşviqi sahəsində görülən işlər də regionların inkişafına müsbət təsir göstərir və investisiyaların təşviqi mexanizmi uğurlu nəticələr verir. Bugünədək 400-ə yaxın layihə təşviq olunub və onların nəticəsində ölkə iqtisadiyyatına 3,4 milyard manat sərmayə qoyulub. Bunların nəticəsində 16 mindən çox yeni iş yerinin açılması artıq reallaşıb.

Aydındır ki, biznes mühiti üçün layiqli, səviyyəli infrastrukturun mövcudluğu əsas şərtdir. Bu baxımdan qeyd etdiyiniz infrastruktur layihələrinin icrasının davam etdirilməsi regional proqramın əsas məqsədlərindən biridir. Qeyd etdiyiniz kimi, elektrik, qaz təchizatı, yolların çəkilməsi, xüsusilə kənd yollarının çəkilməsi və son illər ərzində Sizin tapşırığınızla bu istiqamətdə görülən işlər, doğrudan da, regionlardakı vəziyyəti ciddi surətdə dəyişib. Artıq kənd yerlərində mövcud olan köhnə yolların böyük hissəsi təmir olunub və yüksək səviyyəyə qaldırılıb. Bu da həm əhalinin rifahının yaxşılaşmasına, həm də iqtisadiyyatın inkişafına çox müsbət təsir göstərib.

Siz meliorasiya sahəsində görülən işləri qeyd etdiniz. Min kilometrlərlə kollektor-drenaj sistemləri təmizlənir, subartezian quyuları qazılır, əhalinin istifadəsinə verilir. Eyni zamanda, Siz hər il bu proqrama ciddi diqqət göstərir, onu şəxsən təsdiq edirsiniz. Bu quyuların kəndbəkənd dislokasiyasına Siz özünüz nəzarət edirsiniz və bunun da çox gözəl nəticələri göz qabağındadır.

Mən xüsusilə sosial sahədə görülən işləri də vurğulamaq istəyirəm. Cənab Prezident, regionların sosial-iqtisadi inkişafı proqramlarının əsas məqsədlərindən biri də məhz sosial sahədə layihələrin həyata keçirilməsi idi. Bu sahədə də böyük həcmdə işlər görülüb, 3 mindən çox məktəb yenidən tikilib və ya əsaslı şəkildə təmir olunub. İki ildir artıq yeni yanaşma da mövcuddur - modul tipli məktəblərin tikintisinə də başlanmışdır. Bu, ilk növbədə, kiçik kəndlərdə, ucqar regionlarda yerləşən kənd məktəblərinə aid idi. Bu proqram da uğurla icra olunur. Sizi əmin etmək istəyirəm ki, proqramda nəzərdə tutulan bütün işlər yerinə yetiriləcəkdir.

Cənab Prezident, qeyd etmək istəyirəm ki, proqramda nəzərdə tutulmuş bütün tədbirlərin icrasına nəzarət olunur. Bu nəzarət göstərir ki, nəzərdə tutulan işlər Sizin müəyyən etdiyiniz vaxtda yüksək keyfiyyətlə icra olunacaqdır.

**Prezident İlham ƏLİYEV:** Biznes mühitinin yaxşılaşdırılması istiqamətində çox ciddi addımlar atılıb. Dünya Bankının "Doing Business" proqramı çərçivəsində Azərbaycan 10 ən islahatçı ölkə kimi tanınır və biz 32 pillə irəliləmişik və hazırda 25-ci yerdəyik. Əlbəttə ki, bu, Azərbaycana investisiyaların cəlb edilməsi üçün müsbət rol oynayır və oynayacaq. Bütün aparıcı beynəlxalq maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir.

O ki qaldı infrastruktur layihələrinə, əlbəttə, bir çox layihələr icra edilib, o cümlədən sosial infrastrukturla bağlı və bu il də icra ediləcək. Onlarla məktəb tikiləcək, 10 şəhərdə mərkəzi xəstəxana yenidən tikiləcək, yaxud da ki, əsaslı təmir olunub istifadəyə veriləcək. Olimpiya kompleksləri - 3 olimpiya kompleksinin açılışı nəzərdə tutulur, biri artıq açılıb. Digər sosial infrastruktur layihələrinin icrası ilə bağlı konkret proqramlar, planlar var və bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapır.

Güzəştli şərtlərlə verilən kreditlərin həcmi bu il 170 milyon manat səviyyəsində idi. Bunların neçə faizi icra olunub və hazırda vəziyyət nə yerdədir?

**Nazir Şahin MUSTAFAYEV:** Bu ilin altı ayında sahibkarlara 50 milyon manatadək güzəştli kredit ayrılmışdır. İlin ikinci yarısında 120 milyon manat həcmində güzəştli kredit veriləcək. Layihələr qəbul olunub, baxılıb və hazır layihələr müəyyənləşdirilib.

**Prezident İlham ƏLİYEV:** Yol tikintisi də Azərbaycanda geniş vüsət alıb. Son 15 il ərzində 15 min kilometr yol çəkilib. Bu il də kənd yollarının, şəhərlərarası yolların çəkilişi nəzərdə tutulur. Təxminən min kilometrə yaxın yolun çəkilişi nəzərdə tutulur. Məndə olan məlumata görə, altı ayda təxminən 400 kilometrə yaxın avtomobil yolu çəkilib. Bu, demək olar ki, Azərbaycanda yol infrastrukturunun tamamilə yenilənməsinə gətirib çıxardı. Təsadüfi deyil ki, Davos Ümumdünya İqtisadi Forumunun hesabatında avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünyada 34-cü yerdədir. Əminəm ki, bizim yerimiz daha da irəliləyəcək. Çünki bu sahəyə, doğrudan da, çox böyük investisiyalar qoyulur və bundan sonra da qoyulacaq.

Mən qeyd etdim ki, bizim büdcə daxilolmalarımız artır. Eyni zamanda, valyuta ehtiyatlarımız artır. Valyuta ehtiyatlarımız rekord həddə çatıb - 49 milyard dollar səviyyəsindədir. Bu, bizim böyük sərvətimizdir, böyük uğurumuzdur. Bu ilin altı ayında valyuta ehtiyatlarımız 4 milyard dollar artıb. Biz bu vəsaitdən çox qənaətlə istifadə edirik. Məhz buna görə hətta böhranlı illərdə, neftin qiyməti aşağı olan illərdə biz öz valyuta resurslarımızı qorumuşuq və artırmışıq. Məqsəd də məhz belə idi ki, biz ildən-ilə öz valyuta ehtiyatlarımızı artıraq və bununla paralel olaraq xarici dövlət borcumuzu da kifayət qədər əhəmiyyətli dərəcədə aşağı sala bilmişik. Bir il ərzində xarici borcumuz 4 faiz aşağı düşüb və təxminən 19 faiz səviyyəsindədir. Bu, dünya miqyasında ən gözəl göstəricilərdən biri hesab olunur. Çünki bəzi ölkələrdə dövlət xarici borcu ümumi daxili məhsuldan da artıq olur, yaxud da ki, ona bərabərdir. Bizdə isə bu, 19 faizdir. Biz bu sahədə bundan sonra da çox diqqətli olmalıyıq. Ancaq strateji əhəmiyyət daşıyan layihələrə kreditlərin alınması mümkündür. Çünki bizim öz daxili imkanlarımız var və biz bu imkanlardan istifadə etməliyik.

İnflyasiya qeyd etdiyim kimi, 2,5 faizdir. Bu, yaxşı göstəricidir. Manatın məzənnəsi də sabitdir. Makroiqtisadi vəziyyətlə bağlı və ümumiyyətlə, bu sahədə görülmüş işlərlə, planlarla bağlı Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmova söz verilir.

Mərkəzi Bankın İdarə Heyətinin sədri **Elman RÜSTƏMOV** çıxış edərək dedi:

- Təşəkkür edirəm, cənab Prezident.

Bütövlükdə ölkənin makroiqtisadi sabitliyi onun xarici ticarət və daxili maliyyə balanslarının tarazlığından ibarətdir, ondan asılıdır. Bu istiqamətdə artıq Siz qeyd etdiniz, əlverişli şəraitdə Azərbaycanın həm xarici ticarət balansı 2,9 milyard dollar həcmində profisitlidir, o cümlədən bizim xarici ödəmə balansımız da profisitlidir. Bütövlükdə cari ildə, - artıq Siz qeyd etdiniz, - bizim ixracımız 15 faizdən çox artıb. Amma fərəhli hal odur ki, artıq qeyri-neft ixracımız ümumi ixracdan geridə qalmır, o da 15 faiz səviyyəsində artmışdır və qeyri-neft idxalının əhəmiyyətini üstələməkdədir.

Neftin qiyməti ilin əvvəlindən 20 faizə qədər artıb və 66 dollardır. Bu, bizim daxili proqnozlarımızda, yəni büdcə və sosial-iqtisadi proqnozlarda qoyduğumuz proqnozdan 6 dollar çoxdur. Siz qeyd etdiyiniz kimi, strateji valyuta ehtiyatlarımız son illərdə əhəmiyyətli dərəcədə artmışdır. Biz inamla bütövlükdə böhrandan önceki səviyyəni bərpa etməyə doğru gedirik. Qırx doqquz milyard dollar bizim ümumi daxili məhsuldan daha çoxdur. Bu, Azərbaycanın həm yüksək beynəlxalq ödəmə qabiliyyətini, həm də yüksək maliyyə təhlükəsizliyini ifadə edir.

Mərkəzi Bankın özünün də valyuta ehtiyatları artır. Cari ildə biz valyuta ehtiyatlarımızı 330 milyon dollardan çox artırmışıq. Amma diqqətinizi ona cəlb etmək istəyirəm ki, Sizin qoyduğunuz məsələ - valyuta ehtiyatlarının idarə olunmasının effektivliyinin artırılması olduqca mühüm məsələdir. Bu vəsaitin təxminən 100 milyon dollardan çoxunu biz altı ayda xarici idarəetmədən almışıq. Baxmayaraq ki, beynəlxalq maliyyə bazarlarında vəziyyət kifayət qədər mürəkkəbdir və faiz dərəcələri aşağıdır. Biz ili 3,2 faiz gəlirlə başa vurmağı düşünürük.

Bütövlükdə manatın məzənnəsi, qeyd etdiyiniz kimi, sabitdir və sabit olaraq qalır. Xarici balansın müsbət olması, ixracın şaxələndirilməsi istiqamətində görülən işlər və valyuta təklifinin genişlənməsi və bazarda müsbət gözləntilər daxili valyuta bazarında əhəmiyyətli profisit yaradıb. Mən bunu Sizə məruzə etmişdim. Bütövlükdə bu gün Mərkəzi Bankın sterilizasiyası ilə birlikdə daxili valyuta bazarında 1 milyard ABŞ dollarından çox profisit mövcuddur. Bu isə bütövlükdə manatın məzənnəsinin nəinki bugünkü sabitliyinə, həm də bütövlükdə gözlənilən sabitliyinə təminat verir.

Baxmayaraq ki, məzənnəmiz sabitdir, biz tərəfdaş olan ölkələrlə, ticarət tərəfdaşlarımızla xarici rəqabət qabiliyyətimizi izləyirik. Altı ay ərzində manatın real məzənnəsi 1,2 faiz ucuzlaşıb.

İnflyasiya hədəf diapazonu çərçivəsində həm hökumətin, həm də Mərkəzi Bankın hədəfindən də aşağı səviyyədədir. Baxmayaraq ki, Siz artıq qeyd etdiniz, olduqca presedentsiz sosial tədbirlər həyata keçirilir, sosial siyasət gücləndirilir, daxili tələb genişləndirilir, lakin bütövlükdə idarəetmənin yaxşılaşdırılması, görülən tədbirlər və manatın məzənnəsinin sabitliyi inflyasiyanın aşağı səviyyədə formalaşmasını şərtləndirir.

İnflyasiyanın idarə olunmasında inflyasiya gözləntiləri olduqca mühüm rol oynayır. Biz özümüz Dövlət Statistika Komitəsi ilə birlikdə 4 mindən çox ailə təsərrüfatında sorğular aparmışıq.

# inkişaf edən ölkələr sırasındadır

## dövr üçün yeni hədəfləri bəyan etdi

Bütövlükdə gələcəkdə ilin sonuna qədər inflyasiyanın sürətlənməsini gözləyən əhalinin sayı 2 faizdir. Yəni, əhalinin 98 faizi ilin qalan dövründə inflyasiyanın sürətlənməsinə inanmır. O cümlədən biznesdə bütövlükdə makroiqtisadi sabitliyə, inflyasiyanın dinamikasına olan inam da, - orada da sorğular aparmışıq, - kifayət qədər yuxarıdır.

Bütövlükdə inflyasiya səviyyəsinin aşağı olması şəraitində Mərkəzi Bank ardıcıl olaraq monetar siyasətin, pul-kredit siyasətinin yumşaldılması fonunda addımlar atır. Uçot dərəcəsini 2018-ci ildən bəri 18 faizdən bu gün üçün 8,25 faizə qədər endirmişik. Monetar siyasətin yumşaldılmasının digər istiqaməti bütövlükdə kəmiyyət yumşaldılması, yəni bizim iqtisadiyyata verdiyimiz pulun həcmidir. Cari ildə bu, 9 faizdir. Amma cənab Prezident, son iki ildə pul bazası deyilən bizim əsas göstəricimiz 37 faizdən çox qalxıbdır. Bu da bütövlükdə aşağı inflyasiya şəraitində iqtisadiyyatda canlanma, kredit aktivliyinin artması istiqamətində edilir ki, bankların kifayət qədər öz resursları olsun və bu vəsaitlərdən istifadə edə bilsinlər.

İqtisadiyyatda faiz dərəcələrinin aşağı düşməsini müşahidə edirik. Baxmayaraq ki, ümumi fondu formalaşdıran yüksək istehlak kreditlərinin faizləri olur. Amma biznes kreditlər, yeni verilmiş biznes kreditlərinin orta faiz dərəcəsi cari ildə 11 faizdir və 5 faizdən də aşağı düşüb. Bu, bizim uçot dərəcəsinə yaxındır. Bu, onu göstərir ki, Mərkəzi Bankın uçot dərəcəsi, faiz siyasəti artıq bütövlükdə biznes kreditləri üzrə həm də əhalinin əmanətlərinin faizinin formalaşmasında mühüm rol oynamağa başlayıb.

De-dollarlaşma, deməli bizim o böhran dövründə dollarlaşma baş verdi. Bu gün biz görürük ki, dollarlaşma aşağı düşməyə başlayıb. Fiziki şəxslərin əmanətlərinin dollarlaşması 2016-cı ildə pik nöqtədəki 85 faizdən 56 faizə, kreditlərin dollarlaşması müvafiq olaraq 52 faizdən 35 faizə qədər aşağı düşüb.

Kredit aktivliyi davam edir. Cari ilin altı ayında kreditlər 3,6 faiz artıb. Lakin bu zaman başlıca olaraq bu artım 9 faizdən çox istehlak kreditləri tərəfindən baş verib. Amma biznes kreditləri, real sektorda kreditlər bir qədər - 0,3 faiz azalıb. Hesab edirik ki, biz diqqətli olmalıyıq. İstehlak kreditlərinin artması diqqətlə izlənilməlidir. Həm bütövlükdə əhalinin borc yükünün artmasını, həm də bank sektorunun portfelində bunun 50 faizə yaxınlaşmasını izləməliyik ki, sabah bu, hansı problemlər yarada bilər.

Bu gün bank sektorunda əhəmiyyətli likvidlik var. Amma biz yenə də görürük ki, biznes kreditlər artmır. Görünür, kompleks requlyativ, stimullaşdırıcı tədbirlər görmək lazım gələcək ki, bu kreditlər bütövlükdə real sektora getsin və bütövlükdə ölkədə daxili investisiya prosesini dəstəkləsin.

Əhalinin devalvasiya dövründə zərər gördüyü valyuta kreditlərinin Sizin fərmanınız və təşəbbüsünüzlə kompensasiya olunması prosesi tam başa çatıbdır, bu vəsaitlər əhaliyə ödənilibdir. Manat kreditlərinin restrukturizasiyası üzrə hazırlıq işləri yekunlaşıbdır. Yaxın vaxtlarda biz əlaqədar qurumlarla birlikdə bu vəsaitlərin əhaliyə verilməsini təmin edəcəyik.

İqtisadi artım haqqında deyildi, bu, davamlıdır. Bütövlükdə 6 rübdür ki, ümumi iqtisadi artım, 10 rübdür ki, qeyri-neft sektorunda iqtisadi artım davam edir. Bu, onun davamlılığını göstərir. Cənab Prezident, ilin sonuna qədər qarşıda duran vəzifə makroiqtisadi sabitliyin qorunub saxlanması və onun inkişaf etdirilməsindən ibarətdir. Biz bunu təmin etməliyik. Sentyabr ayında Sizin fərmanla müəyyən etdiyiniz sosial paketin ikinci mərhələsi başlayır. Bütövlükdə bunu təkcə sosial bir paket kimi yox, həm də yeni iqtisadi artım modelinin bir amili kimi görürük. Çünki bütövlükdə əhalinin daxili tələbatının canlanması daxili istehsalın canlanmasına, ixracın şaxələnməsinə dəstək verəcək. Amma başlıca vəzifəmiz bütövlükdə bu sosial proqramların, əhalinin real gəlirlərinin artması prosesini dəstəkləmək, aşağı inflyasiyaya nail olmaqdır. Burada Mərkəzi Bankın hökumətlə çox yaxşı əlaqələndirilmiş işi nəzərdə tutulur. Biz bu məsələləri Maliyyə Sabitliyi Şurasında müntəzəm müzakirə edirik. Hesab edirik ki, biz buna nail ola biləcəyik.

**Prezident İlham ƏLİYEV:** Mən büdcə daxilolmaları ilə bağlı rəqəmi səsləndirdim. Vergilər Nazirliyi və Gömrük Komitəsinin xətti ilə 440 milyon manatdan çox vəsait daxil olub. Hesab edirəm ki, biz ilin sonuna qədər bu yolla gedəcəyik. İndi proqnoz vermək çətindir, amma hesab edirəm ki, plandan əlavə təxminən 700-800 milyon manat vəsait gözlənilir.

Vergilər naziri **Mikayıl CABBAROV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident. İcazənizlə çox qısa olaraq mən mövcud vəziyyət barədə məruzə edim. Altı ayda icmal büdcəsinə cari daxilolma Vergilər Nazirliyi tərəfindən təmin olunub və 4 milyard 954 milyon manat təşkil edib. Bunun 3 milyard 633 milyon manatı vergi və dövlət rüsumlarıdır, 1 milyard 321 milyon manatı isə məcburi sosial sığorta və işsizlikdən sığorta haqqıdır. Bu, müvafiq olaraq 108,8 faiz vergilər üzrə və müvafiq olaraq 112,5 və 116 faiz məcburi sosial sığorta və işsizlikdən sığorta üzrə rəqəmlərdir. İnanırıq ki, biz bu tempin saxlanılmasına nail olacağıq və hörmətli həmkarlarımızla yaxından işləyirik. Bizdə olan məlumata görə, Dövlət Gömrük Komitəsi də 6 ayda proqnozun 108 faiz icrasını təşkil edib. Bu nəticələrin kökündə duran əsas amillər, ilk növbədə, vergi siyasəti, inzibatçılıq və Sizin rəhbərliyinizlə həyata keçirilən islahatlar olub. İkincisi, həmkar qurumlarımızla yaxından, komanda şəklində birgə işimiz, məlumat mübadiləmiz. Üçüncüsü, vergiödəyiciləri ilə münasibətlərimizin təbiətinin dəyişdirilməsi və nəhayət, kölgə iqtisadiyyatı ilə mübarizədə uğurlarımız, o cümlədən dövriyyə və iş yerlərinin kölgədən çıxarılması.

İcazənizlə mən xüsusilə maraq kəsb edən müəyyən meyillərə diqqətinizi cəlb etmək istərdim. Belə ki, vergi daxilolmalarında qeyri-neft sektorunun payı 70,1 faizə çatıb. Bu, 2018-ci ildəki 65,8 faizlə müqayisədə əhəmiyyətli artımdır. Ümumilikdə, qeyri-neft sektoru üzrə daxilolmanın artım tempi 14,3 faiz təşkil edib. Bu da iqtisadiyyatın müvafiq sektorunun artım tempini üstələyir və illik proqnozun 51,1 faizini artıq icra etmişik. Qeyri-neft sektorunun özündə isə özəl sektorun payı çox yüksəkdir - 77 faiz özəl sektor tərəfindən təmin edilib. Vergi islahatları nəticəsində əmək müqavilələrinin sayında əhəmiyyətli artım qeydə alınıb. Toplam 6 ay ərzində 101 min yeni əmək müqaviləsi qeydiyyata alınıbdır. Bu rəqəmin 77 mini özəl qeyri-neft sektorunda qeydə alınıbdır. Bu da Sizin göstərişinizlə həyata keçirilən vergi güzəşti islahatının birbaşa nəticəsidir. Onu da qeyd etmək istəyirəm ki, vətəndaşlarımızın sərəncamında yalnız bu vergi güzəştindən qalan məbləğ 6 ay ərzində 150 milyon manat təşkil edib, hansı ki, əvvəlki illərdə vergi qismində ödənilirdi. Bu proses davam edir. Bugünə olan rəqəmlər də onu göstərir ki, iyul ayında da bu proses eyni sürətlə davam edir. Aktiv obyektlərin sayında artım müşahidə edirik - 14 faiz aktiv, əlavə dəyər vergiödəyicilərinin sayında isə 40 faiz artım müşahidə edirik.

Son olaraq, vergi nəzarəti tədbirlərinin azaldılmasını mən xüsusi olaraq qeyd etmək istəyirəm. Belə ki, 2018-ci illə müqayisədə səyyar vergi yoxlamalarının sayı 2,7 dəfə, 2017-ci illə müqayisədə isə 6 dəfə azaldılıb. Sevindirici hal ondan ibarətdir ki, biz həmişə özəl sektoru, ümumiyyətlə, iqtisadiyyatın, vergi siyasətinin və inzibatçılığın təsirində izləməyə çalışırıq. Özəl sektorun bank sistemində Azərbaycan manatı ilə olan hesablarında qalıq artımını nəzərinizə çatdırmaq istəyirəm. Bir il ərzində 49 faiz artıb, ilin əvvəlindən isə 20 faiz. Bu da hesab edirik ki, həm biznesin nağdlaşmadan əməliyyatlara keçməsinin, həm də ölkə iqtisadiyyatına olan inamın göstəricisidir.

**Prezident İlham ƏLİYEV:** Büdcənin icrası ilə bağlı vəziyyət nə yerdədir? Samir Şərifov, qısa məlumat verin.

Maliyyə naziri **Samir ŞƏRİFOV** çıxış edərək dedi:

- Cənab Prezident, 2019-cu ilin dövlət büdcəsinin 6 aylıq icrasının göstəriciləri ölkə iqtisadiyyatında baş verən dinamik prosesləri təsdiqləyir. Belə ki, dövlət büdcəsinin xərcləri 100,2 faiz səviyyəsində icra olunub - 10 milyard 951 milyon manat. Dövlət büdcəsinin gəlirləri isə 10 milyard 406 milyon manat məbləğində icra edilib. Dövlət büdcəsinin xərcləri artıqlaması ilə icra olunub. Deməliyəm ki, Siz artıq qeyd etdiyiniz kimi, cənab Prezident, büdcəni əsas təmin edən orqanlar, yəni Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi tərəfindən proqnoz göstəriciləri 108 faiz icra olunub. Çox yüksək göstəricilərdir. Vergilər Nazirliyinin xətti ilə yaxşı göstəricilərin biri də ondan ibarətdir ki, vergi daxilolmalarının 70 faizini qeyri-neft gəlirləri təşkil edib. Sair daxilolmalarda da vəziyyət qənaətbəxşdir, yəni büdcədən kənar daxilolmalar olub. Biz gözlədiyimiz templərdən bir qədər aşağı olsa da, ümid edirik ki, ilin sonuna bu vəziyyət tam düzələcəkdir.

Cənab Prezident, mən bəzi məsələlərə xüsusi olaraq toxunmaq istərdim. Burada vergi və gömrük rüsumları yığımlarının təmin olunmasında hesab edirəm ki, böyük məsələlərdən biri bizim dövlət əsaslı vəsait qoyuluşu xərclərimizin ahəngdar icra olunmasıdır. Qeyd etməliyəm ki, cari ildə 5 milyard 980 milyon dövlət əsaslı vəsait qoyuluşu üzrə xərclərimizin 37 faizi hələ ki 6 ay ərzində icra olunub. Bunun bəzi obyektiv səbəbləri var. Onunla bağlıdır ki, bu məbləğdə təxminən 1 milyard 140 milyon manat kreditlər nəzərdə tutulub. Bu kreditlərin istifadə əmsalı əfsuslar olsun ki, o qədər də yüksək deyil. Hesab edirik, bizim aidiyyəti qurumlarımız, hansılar ki, bu kreditlərin icrası ilə məşğuldur onlar bu sahədə işlərini sürətləndirməlidirlər. Bəzi hallar, şübhəsiz, təkcə onlardan asılı deyil. Müəyyən satınalma prosedurları var, beynəlxalq maliyyə qurumları tərəfindən onlar gözlənilməlidir. Bunlar da müəyyən vaxt tələb edir. Bir sıra hallarda Azərbaycan dövlət satınalmaları haqqında qanunvericiliyə uyğun tədbirlər görülməlidir. Hesab edirik ki, bunların ləngiməsi nəticəsində dövlət büdcəsinin vəsaitləri, əsasən də infrastruktur layihələrinin həyata keçirilməsi üzrə müəyyən geriləmələr var. Bu isə bizim vergi, gömrük orqanlarının işidir. Nəticə etibarilə, dövlət büdcəsinin gəlirlər proqnozunun və xərclərinin icrasında bizə müəyyən maneələr yarada bilər. Ona görə biz çalışırıq ki, dövlət büdcəsinin xərcləri ahəngdar icra olunsun və xərclərin böyük bir hissəsi ilin sonuna - noyabr-dekabr aylarına təsadüf etməsin.

Dövlət büdcəsinin icrası tam təmin olunur. O cümlədən Sizin tərəfinizdən qəbul edilmiş sosial təşəbbüslər proqramı tam maliyyələşdirilir. Kreditlərlə bağlı Sizin qəbul etdiyiniz çox humanist qərarınızın icrası aidiyyəti orqanlar tərəfindən qısa müddət ərzində təmin olunub.

Dövlət borcu sahəsində də, cənab Prezident, bütün öhdəliklər yerinə yetirilməkdədir. Sizin tərəfinizdən təsdiq olunmuş orta və uzunmüddətli dövlət borcunun idarə edilməsi strategiyasına tam əməl olunmaqdadır. Siz qeyd etdiyiniz kimi, borcun səviyyəsini endirməyə nail olmuşuq və biz bu səviyyənin saxlanılmasını təmin edirik. Cənab Prezident, onu da qeyd etmək istərdim ki, eyni zamanda, dövlət tərəfindən bəzi əhəmiyyətli layihələrə dövlət zəmanətləri verilir. O cümlədən belə mühüm layihələrdən biri də "Cənub qaz dəhlizi" layihəsidir. Sevindirici haldır, biz Sizə məruzə etmişdik ki, bu layihə üzrə nəzərdə tutulmuş maliyyələşdirməyə tam ehtiyac yaranmamışdır, lakin xarici maliyyə qurumları ilə danışıqlar aparılmışdı, yəni onlar bu vəsaitləri ayırmağa hazır idilər. Amma birinci paket olaraq biz 2 milyardlıq borclanmadan imtina etdik, buna ehtiyac yaranmamışdı. İndi də əlavə sevindirici haldır ki, artıq Çoxtərəfli İnvestisiyalar üzrə Zəmanət Agentliyi - MİGA ilə bizim "Cənub qaz dəhlizi" şirkəti tərəfindən kredit müqaviləsi bağlanmışdır - 750 milyon dollar məbləğində. İndi isə o kreditin götürülməsinə ehtiyac yoxdur. Yəni, həm o layihə üzrə qənaət hesabına, həm də layihənin işə salınması ilə əlaqədar bizim o şirkətimiz artıq sərbəst maliyyə axınına malik olub və o, vəsait hesabına bu borcları təmin edir.

Ümumiyyətlə, cənab Prezident, qeyd etmək istərdim ki, ilin sonunadək dövlət büdcəsi qarşısında olan öhdəliklərin tam təmin edilməsi üçün bütün şərait yaradılıb. Ələlxüsus, çox ümidverici haldır ki, bizim dövlət büdcəsinə daxilolmanı təmin edən orqanlar tərəfindən proqnoz göstəricilər artımlarla icra olunmaqdadır.

**Prezident İlham ƏLİYEV:** Kənd təsərrüfatında bu il rekord göstərici əldə edilib. Qeyd etdiyim kimi, bu, aparılan islahatlar nəticəsində mümkün olub. Müxtəlif istiqamətli addımlar kənd təsərrüfatında canlanmaya gətirib çıxarıb. Əlbəttə ki, dövlət dəstəyi hər zaman olduğu kimi, bu il də göstərilir, bundan sonra da göstəriləcək. Bu istiqamətdə atılan addımlar artıq real nəticələr verir və kənd təsərrüfatı uğurla inkişaf edir. Əsasən bitkiçilik sahəsində, heyvandarlıqda artım təxminən üç faizə yaxındır. Hesab edirəm, bu sahəyə daha da böyük diqqət göstərilməlidir ki, heyvandarlıq da əhəmiyyətli dərəcədə artsın.

Məndə olan məlumata görə, taxıl istehsalı 40 faiz artıb. Məhsuldarlıq da kifayət qədər yüksəkdir. Əvvəlki illərlə müqayisədə indi orta məhsuldarlıq 30 sentnerdən çoxdur. Ancaq elə təsərrüfatlar var ki, orada məhsuldarlıq 60 sentnerdir və ondan da çoxdur. Yəni, bu, onu göstərir ki, müasir yanaşma, kənd təsərrüfatının elmi əsaslarla inkişafı məhsuldarlığı böyük dərəcədə artırır və artıracaq.

Digər məhsulların istehsalı da artıb. Beləliklə, bostan məhsulları təxminən 40 faiz, meyvə 20 faizdən çox, barama 25 faiz, tərəvəz 14 faiz. Yəni, ixracımız da artır və əlbəttə ki, növbəti illərdə biz bu istiqamətdə öz siyasətimizi aparaq özümüzü daha da böyük nəticələrə çatdıracağıq.

Bu sahədə görülmüş işlərlə bağlı söz verilir Kənd Təsərrüfatı naziri İnam Kərimova.

**Nazir İnam KƏRİMOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Sizin tərəfinizdən həyata keçirilən aqrar islahatlar üzrə tədbirlər davam etdirilir. Görülmüş sistemli tədbirlər öz müsbət nəticəsini verməkdədir. Bütün sahələrdə, həmçinin bitkiçilik və heyvandarlıq sahələrində artım müşahidə edilir. Bu il bizim qarşımızda duran əsas vəzifələrdən biri fermerlərin daim yanında olmaq, onların üzləşdikləri problemlərin həllində yaxından iştirak etməkdir. Bizim əsas qayğımız və vəzifəmiz əkin balansımızı təşkil edən taxılçılıqla bağlı olub. Bu il 1 milyon 12 min hektarda taxıl əkini həyata keçirilib. Bunun 670 min hektarını buğda, 342 min hektarını isə arpa əkini təşkil edib. Həyata keçirilən tədbirlər nəticəsində əsas məsələ düzgün texniki təminatın təmin edilməsi olub. Belə ki, hər il fermerlərimiz bu sahə ilə bağlı çoxsaylı müraciətlər ediblər. Amma dislokasiya sisteminin qurulması, xüsusilə də müasir avadanlıqlardan istifadə edilməsi, kombaynlara GPS quraşdırılması və onların düzgün dislokasiyası nəticəsində bu il taxıl biçini 20 gün tez başa çatıb. Məhsuldarlıq da bu il daha yüksək olub. Ötən ilə nisbətən hər hektardan təxminən 2 sentner daha çox məhsul əldə edilib. Bununla yanaşı, hazırda qarşımızda duran əsas vəzifə pambıqçılığın inkişafı ilə bağlıdır. Pambığın tədarükü növbəti aydan - sentyabrdan başlayacaq. Həm texnika, həm də gübrə ilə tam təminat üçün işlər həyata keçiriləcək.

Cənab Prezident, fermerləri sevindirən əsas hallardan biri odur ki, Sizin lizinq fəaliyyəti ilə bağlı həyata keçirdiyiniz islahat nəticəsində artıq bazarda tam liberallaşma mövcuddur. Artıq dövlət tərəfindən tətbiq edilən güzəştlər və subsidiyalar bütün təchizatçı şirkətlərə tətbiq edilir. Bazarda texnikanın qiymətində təxminən 30 faiz ucuzlaşma baş verib.

Subsidiyalarla bağlı Sizin həyata keçirdiyiniz islahat nəticəsində, hesab edirik ki, gübrələrlə əlaqədar bu liberallaşma gələn ildən tam həyata keçiriləcək. Gübrənin həm əlçatanlığı təmin ediləcək, həm də qiymətində kifayət qədər ucuzlaşma baş verəcək. Hazırda bizim qarşımızda duran vəzifə gübrənin əlçatanlığını daha da yaxşılaşdırmaqdır. Çünki bəzi hallarda fermerlərimiz gübrənin əldə edilməsi üçün böyük məsafələr qət etməyə çalışırlar. Ona görə də Kənd Təsərrüfatı Nazirliyi bu ildən gübrənin səyyar satışını həyata keçirib və onu fermerlərin birbaşa həyətlərinə və təsərrüfatlarına çatdırıb.

Möhtərəm cənab Prezident, qarşımıza qoyduğunuz əsas vəzifələrdən biri elektron kənd təsərrüfatının təşviqidir. Hazırda artıq 300 mindən çox fermer elektron kənd təsərrüfatında qeydiyyatdan keçib. Gələn ilin yanvar ayında artıq subsidiyaların verilməsi tam elektron formada həyata keçiriləcək. Elektron kənd təsərrüfatı sistemi, həmçinin imkan verəcəkdir ki, biz əvvəlcədən fermerlərimizin əkinlərini planlaşdıraq və proqnozlaşdıraq. Belə ki, fermerlərimiz mütləq qaydada öz əkin planlarını elektron kənd təsərrüfatında bəyan etməlidirlər. Bununla yanaşı, Sizin tərəfinizdən həyata keçirilən digər vacib islahat yeni subsidiya sistemi ilə bağlıdır. Hazırda subsidiya sisteminin tətbiqi ilə bağlı hazırlıq işləri həyata keçirilir. 2020-ci ilin yanvar ayından artıq subsidiyalar yeni sistemlə veriləcək. Bu da, ilk növbədə, məhsuldarlığın, məşğulluğun artırılmasına, ərzaq təhlükəsizliyinin daha da yaxşılaşdırılmasına və bizim kənd təsərrüfatı sahəsində ixrac potensialımızın yaxşılaşdırılmasına imkan verəcək.

Müşavirəyə yekun vuran **Prezident İlham ƏLİYEV** dedi:

- Bu sahədə də işlər uğurla gedir. Kənd təsərrüfatı hər bir ölkə üçün önəmli sahədir. Ərzaq təhlükəsizliyinin təmin edilməsi bizim üçün əsas vəzifədir, eyni zamanda, biz öz ixrac imkanlarımızı da genişləndiririk. Fermerlərə əlavə güzəştlər edilir. Texnika ilə bağlı təminat yüksək səviyyədədir. Bu il 700-dən çox texnikanın satılması artıq təmin edilibdir. Əvvəlki illərdə böyük sayda kənd təsərrüfatı texnikasının alınması hesabına biz bu sahənin inkişafına nail ola bildik. Əlbəttə, burada müasir texnologiyalar, müasir suvarma sistemləri əsas rol oynayır. İndi Azərbaycanda azot gübrəsi zavodu da fəaliyyət göstərir. Yəni, xaricdən azot gübrəsinin alınmasına ehtiyac qalmır. Pivot tipli suvarma sistemləri Azərbaycanda istehsal edilməyə başlamışdır. Yəni, bu sahədə biz özümüzü təmin etmək üçün, əlbəttə ki, çox ciddi addımlar atırıq. Əminəm ki, növbəti illərdə bu sahədə daha da böyük nəticələr əldə ediləcək.

Məndə olan məlumata görə, bizdə nağdsız ödənişlər hələ də aşağı səviyyədədir. Hesab edirəm ki, bu sahədə çox ciddi addımlar atılmalıdır. Çünki biz çalışmalıyıq ki, nağdsız ödənişlərin həcmi artsın. Posterminalların sayı da artmalıdır. Ancaq mənə verilən məlumata görə, onların sayı artmır. Bu problem öz həllini tapmalıdır. Çünki nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, kölgə iqtisadiyyatını qidalandırır. Kölgə iqtisadiyyatı ilə mübarizə bizim üçün indi əsas məsələlərdən biridir. Bu gün burada verilən məlumat bunu göstərir ki, bu istiqamətdə önəmli addımlar atılıb. Yüz mindən çox əmək müqaviləsi bağlanıb. Halbuki bu insanlar əvvəllər kölgə iqtisadiyyatında fəaliyyət göstərirdilər. Nağdsız ödənişlərin aşağı səviyyədə olması, əlbəttə ki, qəbuledilməzdir. Tapşırıq verirəm ki, bu məsələ təhlil edilsin və ciddi addımlar atılmalıdır. Nağdsız ödənişlərin ümumi həcmi Azərbaycanda 2 milyard 300 milyon dollardır. Elədir?

Prezidentin İqtisadi siyasət və sənaye məsələləri üzrə köməkçisi **Natiq ƏMİROV:** Bəli, nağd çıxarılan məbləğlər istisna olmaqla.

**Prezident İlham ƏLİYEV:** Bu sahəyə çox ciddi diqqət göstərilməlidir.

Baxmayaraq ki, inflyasiya aşağı səviyyədədir, ancaq bəzi hallarda süni qiymət artımı da müşahidə olunur. Müvafiq qurumlar bu məsələ ilə ciddi məşğul olmalıdırlar. Mənə məlumat verilən kimi, dərhal göstərişlər verilir. Yəni, istehlak bazarına daim nəzarət olmalıdır. Çünki burada kartel sövdələşmələri də istisna deyil. Əlbəttə ki, biz süni qiymət artımına yol verə bilmərik. Çox ciddi nəzarət mexanizmi olmalıdır. Bu sahə daim diqqət mərkəzində olmalıdır.

Bakı şəhərində bir çox layihələr icra edilir, o cümlədən kommunal təsərrüfat yenilənir, 400-dən çox lift alınıb və quraşdırılır, abadlaşdırılan 50-dən çox nümunəvi həyət artıq vətəndaşların sərəncamına verilib. Şəhər nəqliyyatı üçün 300 yeni müasir avtobus gətirilir və bu, doğrudan da, böyük irəliləyiş olacaq. Çünki şəhər nəqliyyatının müasirləşməsi bizim üçün çox önəmlidir - vətəndaşların rahatlığı, təhlükəsizlik tədbirləri üçün. Metro vaqonları alınır və metro tikintisi həyata keçirilir. Deyə bilərəm ki, Bakı o şəhərlərdəndir ki, burada metro tikintisi aparılır və postsovet məkanında biz bu sahədə də sayılan şəhərlər arasındayıq. Ümumiyyətlə, Bakı şəhərinin abadlaşması, müasirləşməsi, gözəlləşməsi istiqamətində çox böyük işlər görülüb. Bu gün Bakı dünyanın ən gözəl şəhərlərindən biridir. Ancaq, eyni zamanda, mövcud problemlər də var. Bu problemlərin həlli daim diqqət mərkəzində olmalıdır.

Küçə işıqlandırılması hələ də lazımi səviyyədə deyil. Şəhərin mərkəzi təbii ki, işıqlandırılır, ancaq bəzi yerlərdə küçə işıqlandırılması yoxdur. Bu məsələyə çox ciddi diqqət göstərilməlidir. İndi məişət tullantılarının idarə olunması istiqamətində addımlar atılır. Bir neçə il bundan əvvəl Balaxanıda böyük məişət tullantıları zavodu inşa edilmişdir, poliqon salınmışdır, çeşidləmə aparılır. Biz zəncir yaratmalıyıq. Qapıdan ta məişət tullantıları zavoduna qədər vahid zəncir olmalıdır. Hazırda beynəlxalq məsləhətçilərin iştirakı ilə bu layihə Bakı şəhərində icra edilir. Şəhərətrafı dəmir yolu xəttinin çəkilişi davam edir. Bu da çox önəmli layihədir. Bakıda yeni istirahət zonaları yaradılır. Bakı bu gün parklar, bağlar şəhəridir, istirahət zonaları vətəndaşların sərəncamına verilir və bu, əhali tərəfindən yüksək qiymətləndirilir.

İnşaat sektorunun canlandırılması istiqamətində addımlar atılır. Hazırda Bakı şəhərində bir neçə yüz yaşayış binasının tikintisi gedir. Bu, müsbət haldır. Bu, inşaat materialları sektoruna da müsbət təsir göstərir, iş yerlərinin açılması üçün şərait yaradır. Onu da bildirməliyəm ki, ilin əvvəlindən 60 min yeni iş yeri açılmışdır. Onların bir hissəsi dövlət sektorunda açılmışdır. Biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun. Ona görə ödənişli ictimai iş yerlərinin yaradılması istiqamətində önəmli addımlar atılıb və təxminən 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıbdır.

Yəni, bu, bizim sosial sahədə gördüyümüz işlərdir. Yəni, buna görə bu iş yerləri açılır ki, vətəndaşlar işlə təmin olunsunlar. Ancaq hamımız yaxşı bilməliyik ki, özəl sektor iş yerlərinin yaradılmasına öz töhfəsini daha böyük həcmdə verməlidir. Özəl sektorun nümayəndələri ilə aparılan işlər nəticəsində biz bu sahədə də artım görürük. İqtisadi canlanma, əlbəttə ki, iş yerlərinin yaradılmasına da gətirib çıxarır. Çünki bu, daimi proses olmalıdır.

Bizim əhalimiz artır. Müstəqillik dövründə əhalimiz təxminən 3 milyon nəfər artıb. Bu il biz 10 milyonuncu vətəndaşın dünyaya gəlməsini sevinclə qeyd etmişik. Bu, bizim böyük sərvətimizdir, amma digər tərəfdən onu deməyə əsas verir ki, biz daim iş yerlərinin yaradılması ilə məşğul olmalıyıq. Sosial infrastrukturun yaradılması ilə məşğul olmalıyıq, nəqliyyat sahəsində əlavə tədbirlər görülməlidir ki, artan əhali, vətəndaşlar özlərini rahat hiss etsinlər, işlə təmin olunsunlar. Bir daha demək istəyirəm ki, bu, daimi prosesdir. Çünki Azərbaycanın uğurlu inkişafı, sənaye sahəsində, iqtisadi sahədə inkişaf əhalinin artımına bilavasitə təsir edən amildir və biz buna daim hazır olmalıyıq.

İqtisadi artım üçün yeni mənbələr axtarılmalıdır ki, bu, dayanıqlı olsun. Qeyri-neft sektorunun inkişafı burada əsas rol oynayır. Ancaq onu da bilməliyik ki, bu gün iqtisadi inkişafımız üçün əsas sektor neft-qaz sektorudur. Bu sahədə də çox önəmli addımlar atılıb. "Cənub qaz dəhlizi"nin icrası ilə bağlı çox əhəmiyyətli işlər görülüb. Hazırda "Cənub qaz dəhlizi"nin icrası sona yaxınlaşır. Artıq onun sonuncu seqmentinin icrası başa çatır. Bu, tarixi layihədir. "Cənub qaz dəhlizi"nin fəaliyyətə başlaması nəticəsində Azərbaycan əlavə gəlir əldə edəcəkdir. Hesab edirəm ki, altı ayda görülmüş işlər təqdirəlayiqdir.

Azərbaycan dayanıqlı inkişaf yolu ilə gedir. Bir neçə il bundan əvvəl dünyanı sarsıdan və bizə də təsirsiz ötüşməyən iqtisadi-maliyyə böhranı artıq arxada qalıb. Biz bu böhrandan şərəflə çıxa bilmişik. Öz valyuta resurslarımızı qoruya bilmişik və artırmışıq. Qeyd etdiyim kimi, təkcə altı ay ərzində 4 milyard dollar əlavə valyuta ehtiyatları toplamışıq. Əlbəttə ki, bu, bizim gələcək işlərimiz üçün də yaxşı şərait yaradır. Ancaq vergi, gömrük sistemində aparılan islahatlar, inzibatçılıq sahəsində görülən işlər və daxilolmaların artımı əlbəttə ki, büdcəmizin əsas mənbəyi olmalıdır. Biz vəsaitdən çox qənaətlə istifadə etməliyik. Xüsusilə dövlət investisiya layihələrinə çox ciddi nəzarət olmalıdır. Dövlət şirkətlərində korporativ idarəetmə sistemi yaradılmalıdır. Bu məsələ ilə bağlı göstərişlər verilib. Hesab edirəm ki, biz tezliklə müasir korporativ qaydalarla idarə olunan şirkətləri görəcəyik. Yəni, bu, çox önəmli məsələdir. İqtisadi sahədə bundan sonrakı inkişaf üçün əlbəttə ki, biz xarici ekspertləri də cəlb etməliyik və edirik. Biz beynəlxalq maliyyə qurumları ilə fəal işləyirik və bu iş bundan sonra da davam etdiriləcək. Yəni, iqtisadiyyatın yeni modeli - bu gün tələbat bundan ibarətdir. 2025-ci ilə qədər nəzərdə tutulmuş Strateji Yol Xəritəsi bu məsələlərə cavab verir.

Azərbaycan innovasiyalar, müasir idarəetmə, liberal iqtisadiyyat yolu ilə inkişaf etməlidir. Yəni, bütün lazımi tədbirlər görülüb. Təsadüfi deyil ki, bunu beynəlxalq maliyyə qurumları qeyd edir. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində aparılan işlər bunu göstərir ki, bu gün iqtisadi sahədə Azərbaycan dünya miqyasında uğurla inkişaf edən ölkələr sırasındadır. Bununla paralel olaraq, biz sosial sahəyə də çox böyük diqqət göstəririk. Bu il reallaşan layihələr - milyardlarla dollar həcmində ölçülən bu layihələr, bu təşəbbüslər bizim niyyətimizi, bizim siyasətimizi göstərir. Göstərir ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bizim iqtisadi gücümüz sosial sahəyə bilavasitə təsir etməlidir və edir. Biz bundan sonra da bu yolla gedəcəyik. Əminəm ki, ilin sonuna qədər nəzərdə tutulan bütün vəzifələr icra ediləcəkdir.

# İsveçrə Konfederasiyasının Prezidenti zati-aliləri cənab Ueli Maurerə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-İsveçrə əlaqələri, ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İsveçrə xalqına daim sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 iyul 2019-cu il*

# Azərbaycanın kino xadimlərinə fəxri adların verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan kinematoqrafiyasının inkişafında xidmətlərinə görə aşağıdakı kino xadimlərinə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Xalq artisti"**

Əliyev Vidadi Hüseyn oğlu
Həsənov Vidadi İsmail oğlu
Quliyeva Xalidə Camal qızı

**"Əməkdar incəsənət xadimi"**

Azay Adil Çərkəz oğlu

**"Əməkdar artist"**

Əlilicanzadə Qorxmaz Məmməd oğlu
Namazov Zilli Yunus oğlu

**"Əməkdar mədəniyyət işçisi"**

Ağayev Nəsir İsmayıl oğlu
Dadaşova Nelli Hacı qızı
Hüseynov Nazim Fikrət oğlu
Quliyev Babək Barat oğlu
Mahmudova Zəkiyyə Güləmi qızı
Məmmədov Əli Bala Ənvər oğlu
Muxtarova Tamilla Muxtar qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Azərbaycanın kino xadimlərinə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan kino sənəti sahəsində uzunmüddətli səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin:

Babayeva Zemfira Baba qızı
Sadıxova Zemfira Emin qızı.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Azərbaycan kino xadimlərinin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kino sənətinin inkişafında xidmətlərinə görə aşağıdakı şəxslər "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsinlər:

Əlizadə Oqtay Mahmud oğlu
Rzayev Nazim İsrafil oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Azərbaycan kino sahəsi işçilərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda kino sahəsində səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər "Tərəqqi" medalı ilə təltif edilsinlər:

Ağayev Xanlar Ağakərim oğlu
Həsənov Mahir Məhəmməd oğlu
Hüseynov Əlisəfdər Mürsəl oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# V.M.Vəliyevin Azərbaycan Texniki Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vilayət Məmməd oğlu Vəliyev Azərbaycan Texniki Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Ş.V.Bayramovun Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Vaqif oğlu Bayramov Mingəçevir Dövlət Universitetinin rektoru təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 31 iyul 2019-cu il*

# Atəşkəs rejimi 18 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 18 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində, Berd rayonunun Çinari kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Quşçu Ayrım, Məzəm kəndlərində və adsız yüksəkliklərdə, Tovuz rayonunun Əsrik Cırdaxan, Gədəbəy rayonunun Göyəli kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

# Qəzaya uğramış hərbi təyyarənin axtarışına türkiyəli mütəxəssislər cəlb edilib

Qəzaya uğramış hərbi təyyarənin axtarışına türkiyəli mütəxəssislər cəlb edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 31-də Bakıya gələn Türkiyə Respublikasının aidiyyəti qurumlarının xüsusi avadanlıq və qurğularla təchiz edilmiş mütəxəssisləri təlim-məşq uçuşları zamanı qəzaya uğramış hərbi təyyarənin axtarışı üzrə keçirilən əməliyyatlara cəlb olunublar.

# *Hikmət HACIYEV:* "Qoşulmama Hərəkatına sədrlik böyük siyasi iradə, məsuliyyət, diplomatik güc və imkanlar tələb edir"

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Qoşulmama Hərəkatına (QH) üzv ölkələrin dövlət və hökumət başçılarının oktyabrın 25-26-da Bakıda keçiriləcək XVIII Zirvə Görüşü və Azərbaycan Respublikasının 2019-2022-ci illər üzrə bu quruma sədrliyi ilə bağlı AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.



**- Qoşulmama Hərəkatının müasir dünyada yerini, çəkisini necə qiymətləndirirsiniz və Azərbaycan Respublikasının Hərəkata üzvlüyü ilə bağlı nə deyə bilərsiniz?**

- Qoşulmama Hərəkatı soyuq müharibə zamanı yaransa da, bu gün də müasir dünyada öz aktuallığını itirmir, qlobal problemlərin həlli və dövrümüzün çağırışlarına cavab vermək baxımından mühüm əhəmiyyət kəsb edir. Bu aktuallıq nədən ibarətdir? Qoşulmama Hərəkatı 120 ölkəni birləşdirməklə BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır. Yalnız elə bircə bu faktın özü hərəkatın müasir beynəlxalq münasibətlərin tənzimlənməsində iştirak edən necə bir mühüm çoxtərəfli platforma olmasını göstərir. Dünya dövlətlərinin üçdəikisini əhatə edən bir təsisatın mühüm toplantılarında müzakirə edilən məsələlər şübhəsiz ki, BMT Baş Assambleyasının gündəliyinin formalaşmasına da böyük təsir göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qoşulmama Hərəkatının 2018-ci ilin aprelində Bakıda keçirilmiş Nazirlər konfransında qeyd etdiyi kimi, "Yarım əsrdən çoxdur ki, Qoşulmama Hərəkatı bəşəri dəyərlərin təbliği ilə məşğuldur. Dünyanın ən böyük təşkilatlarından olan Qoşulmama Hərəkatı dünyada sabitlik, sülh və təhlükəsizliyin bərqərar olmasında vacib rol oynayır. Qoşulmama Hərəkatı beynəlxalq hüququn normalarına, ərazi bütövlüyü, bütün üzvlərin suverenliyinə və müstəqilliyinə sadiqdir".

2011-ci ildə Azərbaycan Respublikası Qoşulmama Hərəkatına üzv oldu. Burada bir haşiyə çıxıb qeyd etmək istərdim ki, Azərbaycanı QH-də təmsil olunan ölkələrin bir çoxu ilə tarixən hansısa formada müxtəlif tellər bağlayır. Region, ərəb və müsəlman ölkələri ilə tarixi və dini bağlılığımız var. Yaxud, keçmiş sovetlər dönəmində Vyetnamdan tutmuş Kubaya qədər nəhəng bir coğrafiyadan minlərlə insan Azərbaycanda ali təhsil alıb. Məsələn, təkcə Afrika qitəsindən bu rəqəm 12-15 min civarındadır.

Qoşulmama Hərəkatında üzvlük ölkəmizin milli maraqlarının və mənafeyinin beynəlxalq müstəvidə təmin edilməsi, müxtəlif dövlətlərlə ikitərəfli və çoxtərəfli formatda münasibətlərinin inkişaf etdirilməsi üçün yeni əlverişli imkanlar açdı. Elə 2011-ci ildə Azərbaycan Respublikasının 155 ölkənin dəstəyini qazanmaqla BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində QH ölkələrinin səsinin mühüm rol oynaması bu platformaya qoşulmaqla bağlı verilmiş siyasi qərarın nə qədər uzaqgörən bir addım olduğunu əyani surətdə sübut etdi.

Xüsusi olaraq vurğulamaq istərdim ki, Azərbaycan Respublikasının QH-yə üzv olması həm də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin ədalətli mövqeyinə daha çox dəstək əldə edilməsi işinə öz töhfəsini vermişdir. Təsadüfi deyildir ki, QH-nin yekun sənədlərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həll edilməsinin və bu kontekstdə BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin vacibliyi birmənalı şəkildə ifadə olunmuşdur.

Qoşulmama Hərəkatına üzv olduğu qısa müddət ərzində Azərbaycan Respublikası öz prinsipial, beynəlxalq hüquqa və ədalətə əsaslanan xarici siyasəti ilə hərəkatın üzv ölkələri arasında böyük nüfuz qazandı. Məhz bu nüfuz və etimadın məntiqli nəticəsi kimi 2016-cı ildə QH-yə üzv ölkələrin dövlət və hökumət başçılarının XVII sammitində növbəti Zirvə Görüşünün Bakıda keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycan Respublikasına həvalə edilməsi barədə yekdilliklə qərar qəbul olundu.

**- Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşünə hazırlıq işləri necə gedir?**

- QH-yə üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü "Bandunq Prinsiplərini rəhbər tutmaqla müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək" mövzusunda oktyabrın 25-26-da ölkəmizin paytaxtında keçiriləcək. Vurğulamaq istərdim ki, Zirvə Görüşü müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanda təşkil edilən ən mühüm siyasi tədbirlərdən biri olacaq. Bu, eyni zamanda, 1989-cu ildə keçmiş Yuqoslaviyada keçirilmiş Belqrad sammitindən sonra Avropada təşkil olunacaq ilk Zirvə Görüşü kimi tarixə düşəcək.

Cənab Prezidentin sərəncamı ilə Zirvə Görüşünün təşkili məqsədilə bu ilin fevralında müvafiq dövlət qurumlarının rəhbərlərindən ibarət Təşkilat Komitəsi yaradılıb. Martda təsdiq edilmiş Tədbirlər Planında Zirvə Görüşünün təşkili ilə bağlı həyata keçiriləcək bütün işlər tam təfsilatı ilə qeyd edilib. Tədbirlər Planı 39 bənddən ibarət müfəssəl bir sənəddir. Bildiyiniz kimi, son illər ölkəmizdə çoxsaylı böyük siyasi, iqtisadi, idman, musiqi tədbirləri keçirilib və əminik ki, aidiyyəti dövlət qurumlarının dəstəyi ilə Zirvə Görüşü sözün əsl mənasında bir "uğur hekayəsi" olacaq. Şübhəsiz ki, Zirvə Görüşü, eləcə də sədrlik həm ölkəmizin əldə etdiyi nailiyyətlərin dünyada daha da tanıtdırılması və təşviq edilməsinə öz töhfəsini verəcək, həm də Azərbaycanın QH-də və ümumən dünyada nüfuzunu, çəkisini daha da artıracaq.

**- Azərbaycan Respublikasının Qoşulmama Hərəkatında sədrliyi dövründə fəaliyyətini necə quracağı, prioritetlərinin nədən ibarət olacağı barədə nə deyə bilərsiniz?**

- Qoşulmama Hərəkatında sədrliyimizin prioritetlərinin hazırlanması prosesi hazırda son mərhələdədir. Detallara varmadan ümumi olaraq qeyd etmək istərdim ki, QH-nin fəaliyyətinin əsaslarını təşkil edən tarixi "Bandunq Prinsipləri", - o prinsiplər ki, özündə bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, başqa ölkələrin suverenliyinə və ərazi bütövlüyünə qarşı fəaliyyətdən və güc tətbiqindən imtina, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların və əməkdaşlığın təşviqi, ədalətə və beynəlxalq öhdəliklərə hörmət kimi prinsipləri ehtiva edir, - tam olaraq Azərbaycan Respublikasının xarici siyasətinin ana xətti ilə uzlaşır. Azərbaycan Respublikasının QH-də sədrliyi zamanı fəaliyyəti, prioritetləri məhz bu təməl prinsipləri üzərində qurulacaq. Məqsədimiz üzv dövlətlərlə birgə QH-nin beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmlənməsinə və dayanıqlı inkişafa töhfəmizi artırmaq olacaq.

Qoşulmama Hərəkatında yer alan ölkələr bir-birindən çox fərqlənir. Burada siyasi sabitliyə və iqtisadi nailiyyətlərə nail olmuş ölkələrlə yanaşı, xroniki münaqişələrin və qeyri-sabitliyin qurbanı olan ölkələr, ən az inkişaf etmiş ölkələr, dənizə çıxışı olmayan ölkələr və ya iqlim dəyişikliyinin fəsadlarından əziyyət çəkən və hətta fiziki mövcudluqları belə təhlükə altına düşən kiçik ada ölkələri vardır. Bu ölkələrin də təbii ki, hər birinin öz qayğıları, prioritetləri, gözləntiləri mövcuddur və bu gözləntilərə də cavab vermək olduqca vacibdir. Buna isə bütün dünya ölkələrinin bir-birinin problemlərini anlayışla qarşılaması, qlobal həmrəylik nümayiş etdirməsi, çoxtərəfli diplomatiyanın, multilateralizmin təntənəsi ilə nail olmaq mümkündür. Bu mənada düşünürük ki, həm İslam Əməkdaşlığı Təşkilatı, həm də Avropa Şurasının üzvü olan bir ölkə kimi Azərbaycan Respublikasının malik olduğu müqayisəli üstünlüklərdən istifadə edərək QH-də sədrliyi zamanı digər təsisatlar və regionlar ilə təmas və dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi faydalı olardı.

Qoşulmama Hərəkatına üzv olan ölkələr arasında əməkdaşlıq üçün yeni sahələrin (məsələn, gənclər mövzusu) müəyyənləşdirilməsinin də gərəkli olması qənaətindəyik.

Məlum olduğu kimi, QH ölkələri ənənəvi olaraq sosial-iqtisadi məsələlərə mühüm önəm vermişlər. Dayanıqlı İnkişaf naminə 2030-cu il Gündəliyinin qəbul edilməsi ilə BMT-də inkişaf ölçüsü əhəmiyyətli dərəcədə güclənməyə başladı. Bu mənada Dayanıqlı İnkişaf Məqsədlərinin icrası ilə bağlı qısa müddət ərzində könüllü hesabat təqdim etmiş 14 ölkədən biri kimi Azərbaycan olaraq hesab edirik ki, inkişaf məsələləri də QH-nin gündəliyində mütənasib yer tutmalıdır.

Hesab edirik ki, QH-nin sürətlə dəyişən dünyanın tələblərinə daha mükəmməl surətdə uyğunlaşması üçün sədrliyimiz dövründə üzv ölkələrin iştirakı ilə müəyyən fikir mübadiləsinin aparılmasına da ehtiyac var.

Son olaraq qeyd edim ki, müxtəlif qitələrdən olan və fərqli dillərə, dinlərə, adət-ənənələrə, siyasi sistemlərə malik ölkələrdən ibarət bir hərəkatda sədrliyimiz həm də mədəniyyətlərarası və dinlərarası dialoqun təşviq edilməsini, müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlaşmaya və harmoniyaya nail olunmasını öz siyasətinin ön cərgəsinə çıxarmış Azərbaycan Respublikası üçün bəlkə də bir qanunauyğunluqdur.

Tərkibində 120 ölkəni birləşdirən QH-də sədrlik etmək çox böyük bir siyasi iradə, məsuliyyət, diplomatik güc və imkanlar tələb edir. Ölkəmiz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə qarşıdan gələn 3 il ərzində bu məsuliyyəti öz üzərinə götürməyə hazırdır və qadirdir.

# "Yüksəliş" müsabiqəsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin birinci iclası keçirilib

"Yüksəliş" müsabiqəsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılmış Təşkilat Komitəsinin ilk iclası keçirilib.

Təşkilat komitəsindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri, müsabiqənin Təşkilat Komitəsinin rəhbəri Fərəh Əliyeva tədbiri açaraq bu sərəncamın əsas məqsədinin açıq müsabiqə vasitəsilə yüksək idarəetmə qabiliyyətinə malik, rəhbər vəzifələrdə çalışmaq perspektivi olan, istedadlı idarəçiləri müəyyən edərək kadr ehtiyatı bazasını yaratmaq, eləcə də ölkəmizdə yeni nəsil idarəçilərin yetişdirilməsinə kömək göstərmək, sosial lift mexanizmləri vasitəsilə müasir, intellektual səviyyəsi yüksək olan insanların inkişafı üçün bərabər imkanları genişləndirmək olduğunu qeyd edib.

İclasda müsabiqənin keçirilməsinin əsas məqsədləri, qaydalar, mexanizmlər, işçi qrupunun tərkibi və fəaliyyət istiqamətləri, mükafatlar, qaliblərlə iş və digər məsələlər müzakirə olunub. Bildirilib ki, bu müsabiqəyə intellektual potensialına güvənən, liderlik və idarəetmə bacarıqları olan, dövlət və özəl sektorda istənilən vəzifədə çalışanlar qoşula bilər. Müsabiqənin bir neçə mərhələdən ibarət olması planlaşdırılır. Hər mərhələdə iştirakçılar bilik və bacarıqlarını nümayiş etdirməlidirlər. Ən yüksək nəticə göstərən iştirakçılar qalib elan olunacaq və adları kadr ehtiyatı bazasına daxil ediləcək. Qaliblərin kadr hazırlığı üzrə müxtəlif təhsil və digər proqramlarla təltif edilməsi də nəzərdə tutulur. Eyni zamanda Təşkilat Komitəsinin müəyyən etdiyi idarəçi rəhbərlər qaliblərlə birbaşa işləyəcəklər. Bununla da qaliblər praktiki biliklərini artırmaq imkanı əldə edəcəklər.

Müsabiqə ilə bağlı geniş məlumatlandırma kampaniyasının keçirilməsi qərara alınıb. Müəyyən yaş kateqoriyasına aid və müvafiq təcrübəyə malik hər bir vətəndaş üçün açıq olacaq müsabiqənin internet səhifəsinin tez bir zamanda hazırlanmasına dair tapşırıqlar verilib.

Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev işçi qrupunun rəhbəri təyin edilib.

# Azərbaycan-Fransa iqtisadi əlaqələrinin səviyyəsi məmnunluq doğurur

## İki ölkə arasında əməkdaşlığın daha da dərinləşdirilməsi üçün böyük potensial var

*Əvvəli 1-ci səh.*

Bu gün fransız şirkətləri Azərbaycanın enerji layihələrində yaxından iştirak edirlər. "Suez", "Total", "Thales" kimi şirkətlər respublikamızda dövlət sifarişi ilə həyata keçirilən çoxsaylı layihələrin mühüm tərəfdaşlarıdır. Bu layihələrin dəyəri təqribən 2 milyard avroya yaxındır. Ümumilikdə respublikamızda sənaye, xidmət, rabitə, ticarət, bank və sığorta, kənd təsərrüfatı sahələrində 45 Fransa kapitallı şirkət fəaliyyət göstərir. Fransa şirkətləri Azərbaycanda həyata keçirilən və dəyəri 6,2 milyard dollar olan layihələrdə podratçı qismində də iştirak ediblər.

Azərbaycan həm də Fransanın Cənubi Qafqaz regionu üzrə əsas ticarət tərəfdaşıdır. Təsadüfi deyil ki, ötən il Fransanın Cənubi Qafqazın 3 ölkəsi ilə ümumi dövriyyəsinin 62,4 faizi məhz Azərbaycanın payına düşüb. Bu ilin ilk 5 ayında iki ölkə arasında ticarət dövriyyəsi keçən ilin eyni dövrü ilə müqayisədə 53 faizdən çox artıb. Xatırladaq ki, ötən il ticarət dövriyyəsi 624,7 milyon dollar təşkil edib.

İnvestisiyalar sahəsində də uğurlu əməkdaşlıq mövcuddur. Belə ki, Azərbaycan tərəfindən Fransaya 2,6 milyard dollar, Fransa tərəfindən isə Azərbaycan iqtisadiyyatına 2,2 milyard dollardan çox investisiya yatırılıb.

İyulun 29-da Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Meri qəbul edən Prezident İlham Əliyev iki ölkə arasındakı iqtisadi əlaqələrin səviyyəsindən razılığını diqqətə çatdırıb. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığın uğurla inkişaf etdiyini bildirərək bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd edib. Dövlət başçısı fransız şirkətlərinin Azərbaycandakı səmərəli fəaliyyətini qeyd edərək, onların sayının artmasından məmnunluğunu ifadə edib, investisiya sahəsində də yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğulayıb.

Brüno Lö Merin Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə görüşündə də digər məsələlərlə yanaşı iqtisadi əməkdaşlıqdan da məmnunluqla söz açılıb. İqtisadi əlaqələrin münasibətlərin inkişafında xüsusi yer tutduğunu vurğulayan Birinci vitse-prezident son zamanlar bu sahədə müşahidə edilən müsbət dinamikanın ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə töhfə olacağını deyib. Mövcud potensialdan tam istifadə etməyin vacibliyini diqqətə çatdıran Mehriban Əliyeva həmçinin Azərbaycanda son illərdə iqtisadi sahədə böyük islahatların aparılmasında əsas məqsədin iqtisadiyyatın şaxələndirilməsi olduğunu bildirib. Mehriban Əliyeva özəl sektorun rolunun artırılmasının zəruriliyinə toxunub, bu sahədə Fransanın təcrübəsinin maraq doğurduğunu deyib.

Ümumiyyətlə, iki ölkə arasında iqtisadi sferada əməkdaşlığı daha da dərinləşdirmək üçün böyük potensial var. Xüsusən Azərbaycanda aparılan iqtisadi islahatlar Fransa şirkətləri üçün də yeni əlverişli sərmayə imkanları yaradır. Öz növbəsində Fransa da Azərbaycanla iqtisadi əməkdaşlığının yeni mərhələyə yüksəlməsində maraqlıdır. Bu ölkə Azərbaycanda neft-qaz layihələri çərçivəsində əməkdaşlığın genişləndirilməsini istəyir. Bundan əlavə, fransız şirkətləri Azərbaycanda alternativ və bərpa olunan enerji mənbələrinin inkişafı, nəqliyyat sektoru, maliyyə, ekologiya və sair sahələrdə əməkdaşlıq etməyə maraq göstərirlər.

Fransanın İqtisadiyyat və Maliyyə naziri Brüno Lö Merin Azərbaycana səfəri əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaradır. İqtisadi əlaqələrin yeni mərhələyə qaldırılmasında Prezident İlham Əliyevin və Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya son səfərləri mühüm rol oynayıb. Belə ki, ötən ilin iyulunda Prezident İlham Əliyevin, bu ilin martında Birinci vitse-prezident Mehriban Əliyevanın Fransaya rəsmi səfərlərinin nəticəsi olaraq iki ölkə arasında əlaqələrin inkişafına yeni təkan verilib. Məhz bu səfərlərdən sonra iqtisadi əməkdaşlıq sahəsinə böyük işlər görülməkdədir və bir sıra layihələr üzrə sazişlər imzalanıb. Bütün bunlar onu deməyə əsas verir ki, yaxın vaxtlarda Azərbaycan-Fransa iqtisadi əməkdaşlığı daha da dərinləşəcək və yeni uğurlara nail olunacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan-İndoneziya əlaqələrinin bütün sahələrdə inkişafı üçün böyük potensial mövcuddur



İyulun 31-də Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini Ziyafət Əsgərov ölkəmizdə səfərdə olan İndoneziya Respublikasının Nümayəndələr Palatası sədrinin müavini Fadli Zonun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, Ziyafət Əsgərov Azərbaycanın İndoneziya ilə münasibətlərin inkişafına böyük önəm verdiyini qeyd edib. Bildirib ki, dövlətlərimiz beynəlxalq təşkilatlarda yaxşı əməkdaşlıq edirlər. Azərbaycan-İndoneziya əlaqələrinin bütün sahələrdə inkişafı üçün böyük potensial mövcuddur.

Ziyafət Əsgərov vurğulayıb ki, Azərbaycan Cənubi Qafqazın lider ölkəsidir. Bölgə iqtisadiyyatının 75 faizi məhz Azərbaycanda formalaşır. Ölkəmizdə müxtəlif neft və qaz layihələri həyata keçirilir. Milli Məclis Sədrinin birinci müavini qonağa Bakı-Tbilisi-Ceyhan, TAP və TANAP layihələrinin əhəmiyyəti barədə də məlumat verib.

Söhbət zamanı Ziyafət Əsgərov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışıb. Diqqətə çatdırıb ki, otuz ilə yaxındır Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Problemin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasında müvafiq qətnamələr qəbul olunub. Lakin bu qətnamələrə bugünə qədər əməl olunmur. Eyni zamanda İslam Əməkdaşlıq Təşkilatında dəfələrlə Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti pislənib, ölkəmizin suverenliyi və ərazi bütövlüyünə dəstək verilib.

İndoneziya Nümayəndələr Palatası sədrinin müavini Fadli Zon Azərbaycan parlamenti ilə əlaqələrə böyük önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, ölkələrimiz arasında parlamentlərarası dostluq qrupları fəaliyyət göstərir. Bu dostluq qrupları əlaqələrimizin inkişafına öz töhfəsini verir. Parlamentlərarası əlaqələrin yaxşı olması siyasi, iqtisadi, sosial sahələrdə əlaqələrin inkişafına, həmçinin xalqlarımızın bir-birinə yaxınlaşmasına xidmət edir.

Fadlı Zon ölkəsinin daim işğala qarşı olduğunu deyib. O, parlament diplomatiyası yolu ilə bu məsələdə Azərbaycana dəstək verəcəklərinə əminliyini söyləyib.

Söhbət zamanı Azərbaycan-İndoneziya əlaqələrinin perspektivlərinə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair müzakirələr aparılıb.

# Tanınmış tədqiqatçı alim Teymur Əhmədov beynəlxalq mükafata layiq görülüb

Tanınmış tədqiqatçı alim, yazıçı, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun şöbə müdiri, "Respublika" qəzetinin və "Füyuzat" jurnalının baş redaktoru Teymur Əhmədov Beynəlxalq Atatürk Mükafatına layiq görülüb.

AZƏRTAC xəbər verir ki, mükafat yazıçıya Türkiyə ilə Azərbaycan arasında ədəbiyyatı və mədəniyyəti sahəsində yüksək xidmətlərinə görə verilib.




## 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür

# Ana dilim - qürur yerim




*Əvvəli 1-ci səh.*

Orta əsrlərdə islam dininin yayılması ərəb əlifbasından geniş istifadəyə meydan verdi. Ərəb dili din, elm və təhsil dili hesab edildi. Azərbaycanda da əsrlər boyu həmin əlifbadan istifadə olundu. Amma ərəb qrafikası dilimizin səs sistemini bütün dolğunluğu ilə əks etdirmədi. Azərbaycan dilinin özünəməxsusluğu səbəbindən müəyyən problemlər ortaya çıxdı. Mirzə Fətəli Axundzadə və digər maarifpərvər ziyalılarımız əlifba islahatına səy göstərsələr də, həmin ideyanı reallaşdıra bilmədilər.

Tarixin müxtəlif dönəmlərində milli kimliyimizin, genetik mənsubiyyətimizin ifadəsi olan ana dilimizi qoruyub yaşatmaq Azərbaycanın vətənsevər ziyalılarının ən ali məqsədlərinə çevrildi. Onlar Azərbaycan dilinin dövlət statuslu dillər arasında olması naminə çalışdılar.

İlk dəfə 1918-ci ildə, Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra latın əlifbasından istifadə olundu. 1920-ci il aprelin 28-də Cümhuriyyət hökumətinin süqutuna nail olanlar bu sahədə həyata keçilməyə başlanılmış işləri də yarımçıq qoydular. Azərbaycanın millətsevər ziyalıları əlifba islahatını davam etdirə bilmədilər. Ancaq onların ideyası, arzuları unudulmadı.

## Sovet hakimiyyətinin əlifba siyasəti

Hakimiyyəti ələ keçirən bolşevik hökuməti bu sahədə də öz siyasətini yürütməyə başladı. 1922-ci ildə Azərbaycan hökumətinin qərarı ilə Yeni Əlifba Komitəsi yaradıldı. Komitəyə tapşırıldı ki, Azərbaycan (türk) dili üçün latın qrafikalı əlifba tərtib etsin. Bu, yeni əlifbaya keçilməsi istiqamətində ilk ciddi addım oldu. 1923-cü ildən latın qrafikalı əlifbaya keçmə prosesi sürətləndirildi. 1926-cı ildə Birinci Ümumittifaq Türkoloji qurultay keçirildi. Qurultayın tövsiyəsinə əsasən, 1929-cu il yanvarın 1-dən Azərbaycanda kütləvi şəkildə latın qrafikalı əlifba tətbiq edildi.

Bu dövrdə Azərbaycanda savadsızlığın ləğvi uğrunda mübarizə aparılırdı. Bu mühüm məsələnin həyata keçirilməsinə yeni əlifbanın tətbiqi müsbət təsir göstərdi.

Həmin vaxtlar Türkiyə Cümhuriyyətində də latın qrafikalı əlifbaya keçildi. Sovet Sosialist Respublikaları İttifaqında (SSRİ) və xaricdə yaşayan türk xalqları arasında mədəni əlaqələrin güclənəcəyindən həmişə əndişələnən sovet hökuməti başqa bir qərar verməli oldu. Azərbaycan əlifbası yenidən dəyişdirildi.

Kirill qrafikalı əlifbaya keçmək haqqında qərar İkinci Dünya müharibəsi dövründə - 1940-cı il yanvarın 1-də verildi. Ancaq dilimizin özünəməxsusluğu bu əlifbada da müəyyən dəyişikliklər aparılması zərurətini yaratdı. Dilimizin fonetik səs sisteminə uyğunlaşdırılması üçün sonralar Kirill qrafikasında bəzi dəyişikliklər edildi. Ölkəmizdə yarım əsrdən çox Kirill qrafikasından istifadə olundu. Orta məktəblərdə uşaqlarımız bu əlifba vasitəsilə ana dilində yazıb-oxumağı öyrəndilər. Qəzetlər, jurnallar, kitablar Kirill əlifbası ilə işıq üzü gördü. Elmi, bədii əsərlər həmin əlifba ilə yazıldı.

## "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir"

XX əsrin axırlarında Azərbaycanda azadlıq uğrunda mübarizə gücləndi. Nəhayət, xalqımız öz dövlət müstəqilliyinə qovuşa bildi. Sovet hökumətinin iradəsi ilə həyata keçirilmiş işlərə, verilmiş qərarlara yenidən baxıldı. Latın qrafikalı Azərbaycan əlifbasının bərpası üçün də tarixi şərait yarandı. 1992-ci ildə latın qrafikalı Azərbaycan əlifbasının tətbiqi barədə qanun qəbul edildi. Respublikamızda tədricən latın qrafikalı əlifba tətbiq olunmağa başlandı.

Bundan sonra ana dilimizin qorunması və inkişafı istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Ulu Öndər Heydər Əliyev fərman imzaladı. Həmin ilin avqustunadək respublikamızda latın əlifbasına keçid bütünlüklə təmin edildi. Əlifba dəyişikliyi bir sıra işlərin həyata keçirilməsi zərurətini yaratdı. Ölkəmizin siyasi həyatında, yazı mədəniyyətimizin tarixində latın qrafikalı əlifbanın tətbiqinin mühüm hadisə olduğunu nəzərə alaraq Heydər Əliyev 2001-ci il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" fərman imzaladı. Bu fərmanla avqustun 1-i respublikamızda Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü elan olundu.

Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs ana dilindən istifadə hüququndan məhrum edilə bilməz.

Ana dilimizlə bağlı etdiyi çıxışlarından birində Ümummilli Lider Heydər Əliyev qeyd edirdi: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Mən keçmişdə də demişəm və bu gün də deyirəm, şəxsən arzum ondan ibarətdir ki, hər bir azərbaycanlı çox dil bilsin. Ancaq birinci növbədə öz ana dilini - dövlət dilini yaxşı bilsin. Bizim çox gözəl, zəngin, cazibədar dilimiz var".

2002-ci il 30 sentyabr tarixində Ulu Öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ötən illər ərzində həmin qanun xeyli dərəcədə təkmilləşdirildi.

Prezident İlham Əliyevin müxtəlif vaxtlarda imzaladığı sərəncamlar və bu istiqamətdə görülən işlər də ana dilimizin inkişafına təkan verdi. Ölkə rəhbərinin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı həm də əlifba ilə bağlı problemlərin həllində mühüm addım oldu. Nəticədə kütləvi nəşrlərin latın qrafikasına keçirilməsi təmin edildi. Dövlət başçısının sonrakı sərəncamları əsasında isə 150 cildlik "Dünya ədəbiyyatı kitabxanası", 100 cildlik "Dünya uşaq ədəbiyyatı kitabxanası", 100 cildlik "Azərbaycan ədəbiyyatı kitabxanası" seriyasından olan yeni nəşrlər respublika kitabxana şəbəkəsinin latın qrafikalı ədəbiyyat fondunu zənginləşdirdi. Prezident İlham Əliyev 2004-cü il 13 yanvar tarixində "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" sərəncam imzaladı. Dövlət başçısı ana dili və ədəbiyyatımızın milli xüsusiyyətlərimizin qorunub saxlanmasında rolunu yüksək qiymətləndirərək dedi: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir".

Dövlət başçısının 2012-ci il mayın 23-də imzaladığı "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı haqqında" sərəncamda bildirilir: "Son dövrlərdə müasir Azərbaycan ədəbi dilinin tükənməz imkanlarından lazımınca və düzgün istifadə edilməməsi diqqət çəkir. Ədəbi dilimizin özünəməxsus inkişaf qanunauyğunluqlarına xələl gətirə biləcək yad ünsürlərin üzə çıxarılması və qarşısının alınması istiqamətində mütəxəssislər heç də həmişə çeviklik nümayiş etdirə bilmirlər. Nəticə etibarilə dövlət dilimizin tətbiqi sahəsində bir sıra problemlər özünü qabarıq şəkildə büruzə verir".

...Hər bir xalqın Ana dili onun milli varlığının təzahürü, maddi və mənəvi irsini qoruyan, inkişaf etdirən çox mühüm vasitədir. Azərbaycan dili də Azərbaycan xalqının ən böyük qürurudur. Dünyanın qədim dil ailəsinə - türk dili qrupuna aid olan Azərbaycan dili bu gün Azərbaycan Respublikası adlı dövlətin rəsmi dili kimi böyük adı daşıyır. Bu dildə həm də ölkənin sərhədlərindən kənarda milyonlarla insan danışır, ona qürurla "Ana dilim" deyir, sevə-sevə öz övladlarına öyrədir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# Apelyasiya şuraları 2019-cu ilin birinci yarısına dair hesabat verdi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıqlarına uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti yanında Apelyasiya Şurası, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlətə məxsus hüquqi şəxslərin apelyasiya şuraları 2019-cu ilin birinci yarısında sahibkarlığın inkişafını ləngidən, iş adamlarının fəaliyyətinə mane olan halların aradan qaldırılması, onların şikayətlərinin operativ və obyektiv həll olunması istiqamətində fəaliyyətlərini davam etdiriblər.



Apelyasiya şuralarının cari ilin birinci yarısında gördüyü işlərə dair Prezident yanında Apelyasiya Şurası hesabat hazırlayıb. Hesabatı AZƏRTAC-a şərh edən Prezident yanında Apelyasiya Şurasının sədri Eldar Nuriyev deyib ki, sahibkarların apelyasiya şuralarına şikayət vermə imkanlarının artırılması, onların hüquqlarının daha tutarlı müdafiə olunması məqsədilə dövlət başçısı 2019-cu il mayın 6-da fərman imzalayıb. Fərmana əsasən şuraların fəaliyyət istiqamətləri genişləndirilib, dövlətə məxsus hüquqi şəxslərdə də apelyasiya şuraları yaradılıb.

Fərmanın icrasını təmin etmək məqsədilə apelyasiya şuralarının sədrlərinin və katibliyinin rəhbərlərinin iştirakı ilə geniş müşavirə keçirilib, şuraların iş prinsipi, vəzifələri, qarşıda duran tələblər hərtərəfli müzakirə olunub, zəruri təşkilati-texniki tədbirlər görülüb. Hazırda ölkədə 161 apelyasiya şurası fəaliyyət göstərir.

Eyni zamanda dövlət başçısının 2019-cu il 12 mart tarixli fərmanına əsasən, Prezident yanında Apelyasiya Şurasının səlahiyyətləri artırılıb, inzibati orqanlar arasında aidiyyət və səlahiyyətlə bağlı mübahisələrin həlli Prezident yanında Apelyasiya Şurasına həvalə olunub.

Xüsusilə qeyd edilməlidir ki, dövlət başçısının rəhbərliyi ilə son illər iqtisadi və hüquqi sahələrdə həyata keçirilən genişmiqyaslı islahatlar ölkədə sahibkarlığın inkişafına əlverişli şərait yaradıb, qanun pozuntularının, iş adamlarının fəaliyyətinə əsassız müdaxilə hallarının aradan qaldırılmasına, şikayətlərin sayının əsaslı surətdə azalmasına imkan yaradıb.

Bu ilin 6 ayında Prezident yanında Apelyasiya Şurasına fiziki və hüquqi şəxslərdən 113 müraciət daxil olub. Həmin göstərici 2018-ci ilin eyni dövrü ilə müqayisədə demək olar ki, dəyişməyib (116 müraciət). Bununla belə, aidiyyət və səlahiyyətlə bağlı şuraya şikayət daxil olmayıb, sahibkarlıq fəaliyyəti ilə bağlı Prezident yanında Apelyasiya Şurasına verilən şikayətlərin sayı 20,8 faiz azalıb.

Prezident yanında Apelyasiya Şurasına ünvanlanmış 113 müraciətdən 65-i sahibkarlıq fəaliyyətinə, Şuranın səlahiyyətinə aid olmadığından baxılması üçün aidiyyəti orqanlara göndərilib. Bu müraciətlər əvvəlki illərdə olduğu kimi, torpaq, mülkiyyət, bank kreditləri, sığorta ödənişləri, kommunal xidmətlər, əməkhaqqı, mənzil şəraiti, korrupsiya halları, cinayət təqibi, məhkəmələrdə baxılan işlər, həmçinin sahibkarların təşəkkürləri ilə əlaqədar olub.

Cari ilin 6 ayı ərzində Prezident yanında Apelyasiya Şurasının səlahiyyətlərinə aid 48 müraciət daxil olub. Onlardan 34 müraciət mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlətə məxsus hüquqi şəxslərin apelyasiya şuralarında baxılmadan birbaşa yuxarı instansiyaya verildiyindən prosedur qaydalara əməl edilməsi üçün aidiyyəti qurumlara, onların apelyasiya şuralarına göndərilib.

Müsbət haldır ki, Prezident yanında Apelyasiya Şurasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarına, dövlətə məxsus hüquqi şəxslərin apelyasiya şuralarına göndərdiyi müraciətlərin 59 faizi yerlərdə qanuni həllini tapdığından, mübahisələr aradan qalxdığından onlardan yuxarı instansiyaya təkrar şikayət verilməyib.

Ümumiləşdirmə göstərib ki, şikayətlərə mərkəzi və yerli icra orqanlarında, dövlətə məxsus hüquqi şəxslərdə, onların apelyasiya şuralarında baxılması vəziyyəti xeyli yaxşılaşsa da, əvvəlki illərdə yol verilən bir sıra nöqsan və çatışmazlıqlar hesabat dövründə tam aradan qaldırılmayıb.

Bəzi qurumlar, onların apelyasiya şuraları şikayətlərin həllinə səthi yanaşıb, iş üzrə əhəmiyyət kəsb edən halları tam, hərtərəfli, obyektiv araşdırmayıb, qanunvericiliyi düzgün tətbiq etməyib, toplanmış dəlillərə dürüst hüquqi qiymət verməyib, qanunun tələblərinə uyğun olmayan qərarlar çıxarıblar.

Şikayətlərin həllində ən çox yol verilən nöqsanlar müraciət edən şəxslərin iclasa dəvət olunmaması, şura üzvlərinin rəylərinin tərtib edilməməsi, yaxud mövcud tələblərə əməl edilmədən tərtib edilməsi, iclasın videoçəkilişinin aparılmaması, maddi və prosessual hüquq normalarının pozulması, qəbul edilən qərarların əsaslandırılmaması olub.

Sahibkarların şikayətlərinin həllinə lazımi diqqət göstərilməməsi, əsaslı müraciətlərinin rədd edilməsi sahibkarlığın inkişafına mane olur, qanunvericiliyin tələblərinin, iş adamlarının hüquq və mənafelərinin pozulmasına, haqlı narazılıqlara, şikayətlərin sayının artmasına, digər mənfi hallara gətirib çıxarır. Müraciətlərin həllində yol verilmiş nöqsanlara görə Prezident yanında Apelyasiya Şurası mərkəzi və yerli icra hakimiyyətlərinin apelyasiya şuralarının qəbul etdiyi qərarların 83,3 faizini ləğv edib.

Prezident yanında Apelyasiya Şurasının qəbul etdiyi bütün qərarlar aidiyyəti qurumlar, onların apelyasiya şuraları tərəfindən icra olunub, araşdırılması üçün nəzarətlə aidiyyəti orqanlara göndərilən şikayətlərin çoxu bilavasitə yerlərdə obyektiv həllini tapıb.

Təhlil göstərir ki, bəzən vətəndaşlar qanunvericiliyi öyrənmədən, mövcud tələbləri nəzərə almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmadıqları halda, bəzən də apelyasiya şuralarının səlahiyyətinə aid olmayan məsələlərlə, məişət, sosial və digər xarakterli şikayətlərlə şuralara müraciətlər edirlər.

Bəzən isə sahibkarlar prosedur qaydalarını pozaraq aidiyyəti qurumlara, onların apelyasiya şuralarına müraciət etmədən, müfəssəl cavab almadan birbaşa Prezident yanında Apelyasiya Şurasına şikayət ünvanlayırlar. Statistikaya əsasən, cari ilin 6 ayında apelyasiya şuralarına göndərilmiş şikayətlərin 60,6 faizi şuraların səlahiyyətinə aid olmayıb. Belə hallar lüzumsuz yazışmalara, vaxt itkisinə səbəb olur, şikayətlərin operativ həllinə imkan vermir.

Bir sıra hallarda sahibkarlar qanunvericiliyin tələbini pozaraq əsassız dəlillər, haqsız tələblər irəli sürürlər. Şikayətlərin araşdırılması zamanı iş adamlarının torpaqları zəbt etməsi, həqiqətə uyğun olmayan sənədlər əsasında güzəştli kredit alması, ondan təyinatı üzrə istifadə etməməsi halları müəyyən olunduğundan sənədlər hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa göndərilib, qanun pozuntularının aradan qaldırılması məqsədilə aidiyyəti qurumlara məktublar ünvanlanıb.

Prezident yanında Apelyasiya Şurası tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlətə məxsus hüquqi şəxslərin apelyasiya şuralarının 2019-cu ilin birinci yarısındakı fəaliyyəti də ümumiləşdirilib.

Müəyyən olunub ki, həmin dövrdə 160 mərkəzi və yerli icra hakimiyyəti orqanının, dövlətə məxsus hüquqi şəxslərin apelyasiya şuralarına fiziki və hüquqi şəxslərdən cəmi 238 şikayət daxil olub.

Onlardan 148 şikayətə şuraların səlahiyyətinə aid olmadığına, digər əsaslara görə baxılmayıb, 52 şikayət iclas başlananadək təmin olunduğundan geri götürülüb.

Həmin qurumların apelyasiya şuraları icraata 38 şikayət qəbul edib. Onların 47,4 faizi (18 şikayət) təmin, 44,7 faizi (17 şikayət) rədd edilib, 7,9 faizi (3 şikayət) baxılma mərhələsindədir.

Apelyasiya şuralarında baxılmış şikayətlər üzrə icra hakimiyyəti orqanlarının 17 qərarı dəyişdirilmədən saxlanılıb, 13 qərarı ləğv edilərək yeni qərarlar qəbul olunub, 5 halda orqan rəhbərlərinin hərəkətsizliyi qanunsuz sayılıb.

Hesabat dövründə dövlət qulluğuna qəbulla bağlı müsahibənin nəticələrindən mərkəzi icra hakimiyyəti orqanlarının apelyasiya şuralarına verilmiş şikayətlərə baxılması vəziyyəti də ümumiləşdirilib.

Cari ilin 6 ayında apelyasiya şuralarına bu qəbildən 72 müraciət daxil olub. Onlardan 31 şikayət təmin, 34 şikayət rədd edilib, 7 müraciət üzrə şikayətçilərə qanunvericiliyin tələbi izah olunub.

Ümumiləşdirmənin nəticələri göstərir ki, apelyasiya şuralarının yaradılmasının profilaktik əhəmiyyəti yüksək olub, onların fəaliyyəti biznes sahəsində qanun pozuntularının qarşısının alınmasına, sahibkarların şikayətlərinin azalmasına müsbət təsir edib.

Statistik göstəricilərdən məlum olur ki, bu ilin 6 ayında mərkəzi icra hakimiyyəti orqanlarının apelyasiya şuralarının 60 faizinə, yerli icra hakimiyyətlərinin apelyasiya şuralarının 93,6 faizinə sahibkarlardan ümumiyyətlə şikayət daxil olmayıb, dövlətə məxsus yalnız bir hüquqi şəxsin apelyasiya şurasına şikayət ünvanlanıb.

Sahibkarların hər bir müraciətinə diqqət və məsuliyyətlə yanaşılması, şikayətlərinin vaxtında, düzgün araşdırılması, haqlı tələblərinin təmin olunması məqsədilə Prezident yanında Apelyasiya Şurası tərəfindən apelyasiya şuralarına tapşırıq verilib.

İş adamlarının şikayətlərinin həllində və qanun pozuntularının qarşısının alınmasında qabaqlayıcı təsirə, profilaktik əhəmiyyətə malik olan, çoxpilləli nəzarət mexanizminə əsaslanan apelyasiya şuraları qanunun aliliyinin təmin edilməsi, ədalətin bərqərar olması, sahibkarların hüquqlarının, qanuni mənafelərinin qorunması, onların fəaliyyətinə müdaxilə hallarının aradan qalxması istiqamətində öz səylərini davam etdirməkdədir.

# Müddətli həqiqi hərbi xidmətə iyul çağırışı başa çatıb

Prezident İlham Əliyevin bu il iyunun 3-də imzaladığı "Azərbaycan Respublikası vətəndaşlarının 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında" Sərəncama uyğun olaraq iyulun 1-dən başlanmış növbəti həqiqi hərbi xidmətə çağırış başa çatıb.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətindən (SHXÇDX) AZƏRTAC-a bildiriblər ki, xidmət tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin çağırışçılarla komplektləşdirilməsi ay ərzində müvəffəqiyyətlə yekunlaşıb.

Çağırışçılar həqiqi hərbi xidmətə böyük ruh yüksəkliyi və mütəşəkkilliklə yola düşüblər. Ölkəmizin bütün şəhər və rayonlarında SHXÇDX-nin yerli idarə, şöbə və bölmələrinin şəxsi heyətinin, ictimaiyyətin, hüquq mühafizə orqanları, şəhər və rayon icra hakimiyyətləri, kütləvi informasiya vasitələri nümayəndələrinin, ziyalıların, ağsaqqalların, şəhid ailələri üzvlərinin, Qarabağ qazilərinin, veteranların və valideynlərin iştirakı ilə keçirilən yolasalma mərasimləri əsl bayram təntənəsinə çevrilib.

Sərəncama əsasən, 2001-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları 2019-cu il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılıblar.

Qeyd edək ki, "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanuna əsasən ölkə vətəndaşları müddətli həqiqi hərbi xidmətə ildə dörd dəfə - yanvar, aprel, iyul və oktyabr aylarının 1-dən 30-dək çağırılırlar.

# Düşmən tərəfinin təxribatları davam edir

Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttindəki sərhəd döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir.

DSX-nin mətbuat mərkəzindən bildiriblər ki, iyulun 31-də saat 16:40-da döyüş mövqelərimiz düşmən tərəfindən atəşə tutulub. Düşmənin atəş nöqtələri cavab atəşi ilə susdurulub.

Atışma zamanı Dövlət Sərhəd Xidmətinin döyüş növbəsində xidmət aparan bir hərbi qulluqçusu yaralanıb. Sərhədçiyə dərhal təxirəsalınmaz tibbi yardım göstərilib və hazırda həyatı üçün təhlükə yoxdur.

***"Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Sahibkarlığın İnkişafı Fondu indiyədək 36 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verib

İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu (SİF) ilə Türkiyənin Kiçik və Orta Sahibkarlığın İnkişafı və Dəstəklənməsi Birliyi (KOSGEB) arasında təcrübə mübadiləsinə dair anlaşma memorandumu imzalanıb.

Sənədi SİF-in idarə heyəti sədri vəzifəsini icra edən Samir Hümbətov və KOSGEB-in idarə heyəti sədrinin müavini Salih Tuna Şahin imzalayıblar.

Onu da qeyd edək ki, SİF bu vaxtadək layihələrinin ümumi dəyəri 5,2 milyard manatdan çox olan 36 mindən çox sahibkara 2,3 milyard manat güzəştli kredit verib. Bunu İqtisadiyyat nazirinin müavini Sahib Məmmədov "İnnovativ sahibkarlığın inkişafında dövlətin güzəştli maliyyə dəstəyi" mövzusunda Bakıda keçirilən konfransda deyib. Bildirib ki, bu kreditlər hesabına 166 mindən çox yeni iş yeri açılacaq. Həmin kreditlərin 1 milyard manatı büdcə, 1,3 milyard manatı geri qaytarılan vəsaitlər hesabına verilib. 74 faizi regionlarda, 26 faizi Bakının qəsəbələrində fəaliyyət göstərən sahibkarlara verilən kreditlərin 68 faizi aqrar sektorun, 32 faizi müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilib.

## Neftçalada yeni "Peugeot" modelləri istehsal ediləcək

Neftçala sənaye məhəlləsində yeni "Peugeot 207" modelinin istehsalına hazırlıq işləri gedir. Bu barədə "Azərmaş" şirkətindən bildiriblər.

Mənbənin məlumatına görə, yeni modelin istehsalı yaxın aylarda başlayacaq: "Avtomat ötürücülər qutusu ilə təchiz olunacaq "Peugeot 207" avtomobillərinin qiyməti 17 500 manat təşkil edəcək. Paralel olaraq, Neftçala sənaye məhəlləsində istehsal olunan "Khazar SD" minik avtomobillərinin ixracına hazırlıqlar gedir".

Şirkətdən bildiriblər ki, ixrac Rusiya bazarına planlaşdırılır, hazırda tərəflər detallarla əlaqədar danışıqlar aparır.

O da qeyd olunub ki, bu ilin əvvəlində Neftçala sənaye məhəlləsində yığılmış "Peugeot 407" modelləri daxili bazarda satışa çıxarılıb.

## Bitkiçilikdə 25 faiz artım var


Foto Ağaəli MƏMMƏDOVUNDUR

Bir çox kənd təsərrüfatı məhsulları yığımının qızğın çağıdır. Kəndli yetişdirdiyi məhsulu itkisiz toplamaq, tədarük etmək, yaxud vaxt itirmədən bazara çatdırmaq üçün əlindən gələni əsirgəmir.

Odur ki, indi təkcə bağlarda, tarlalarda deyil, məhsulun yığılıb saxlanılması və satılması ilə bağlı bütün sahələrdə iş başdan aşır.

Götürək taxılçılığı. Taxıl yığımı demək olar ki, sona çatıb. Bununla belə, dağətəyi ərazilərdəki zəmilərin məhsulu hələ biçilməkdədir.

Ümumiyyətlə isə iyun ayında havaların nisbətən isti keçməsi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə daha çox kənd təsərrüfatı məhsullarının yığılmasına səbəb olub. Nəticədə bu il iyulun 1-nə kimi tarlalardan qarğıdalı da daxil olmaqla 2541,7 min ton və ya keçən ilin müvafiq dövrünə nisbətən 40,7 faiz çox dənlilər və dənli paxlalı bitkilər yığılıb. İndi əsas məsələ xırmanlarda taxılın itkisinə yol verməmək, məhsulu anbarlarda elə yerləşdirməkdir ki, keyfiyyətini itirməsin.

Digər məhsullara gəldikdə isə, onlar da keçən ilin müvafiq dövrünə nisbətən xeyli bərəkətli olub. Belə ki, iyul ayının əvvəlinə kimi 335, 7 min ton (10,3 faiz çox) kartof, 675,1 min ton (13,8 faiz çox) tərəvəz, 54,8 min ton (37,5 faiz çox) bostan məhsulları, 125,2 min ton (21,1 faiz çox) meyvə və giləmeyvə yığılıb.

Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 13, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,9, bitkiçilik məhsulları üzrə isə 25 faiz artıb. Məhsul yığımı davam edir.

## KOICA ölkəmizdə elektron hökumətin inkişafını yüksək qiymətləndirib

Elektron Hökumətin İnkişafı Mərkəzində Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (KOICA) Azərbaycan nümayəndəliyi ilə görüş keçirilib.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədr müavini Ceyhun Salmanov, KOICA-nın Azərbaycan nümayəndəliyinin ölkə üzrə direktoru Park Kumok və digər şəxslərin iştirak etdikləri təşkilat arasında əməkdaşlıq, e-hökumət və digər sahələrdə əlaqələrin persperktivləri müzakirə olunub. Sonra Dövlət Agentliyi tərəfindən elektron hökumət sahəsində görülən işlərlə bağlı təqdimat olub və qonaqlar ölkəmizdə elektron hökumətin inkişafı və rəqəmsallaşma ilə bağlı görülən işləri yüksək qiymətləndirib, bu sahədə əməkdaşlıqda maraqlı olduqlarını bildiriblər.

"Rəqəmsal Hökumət" təşviqat proqramının könüllüləri ilə görüşün ardınca isə "CIAT Paylaşımdır" (Capacity Improvement and Advancement for Tomorrow) müsabiqəsində KOICA proqramı məzunu Şənay Qulusoy Elektron Hökumətin İnkişafı Mərkəzi adından müsabiqəyə qatılan və qalib seçilən "Rəqəmsal hökumət" təşviqat proqramı layihəsinə qrant təqdimatı ilə bağlı məlumat verib. Bildirilib ki, bu proqramı KOICA məzunlarının Koreyada təşkil olunmuş KOICA təlim proqramları zamanı əldə etdikləri bilik və təcrübənin Azərbaycanın sosial-iqtisadi inkişafına töhfə vermələrində dəstək olmaq məqsədi daşıyır. Proqram məzunlara öz fəaliyyət planlarını həyata keçirməkdə maliyyə dəstəyi əldə edə bilmək üçün yeni imkanlar yaradır.

## "BakıKart"ın balansını onlayn artırmaq olacaq

Qarşıdakı aylarda "BakıKart"ın balansını onlayn şəkildə artırmaq mümkün olacaq. Bu barədə Bakı Nəqliyyat Agentliyinin mətbuat xidməti məlumat yayıb.

Bildirilir ki, avtobus parkının yenilənməsindən sonra qarşıda duran digər məsələlərdən biri də "BakıKart" sisteminin əhatə dairəsini genişləndirməkdir. Paytaxtda fəaliyyət göstərən avtobusların sayı artdıqca bu məsələ daha da aktuallaşır. Hazırda "BakıKart" sisteminin əhatə dairəsinin genişləndirilməsi və kartın balansının onlayn şəkildə artırılması ilə bağlı işlər görülür.

# Pambıq yenidən "ağ qızıl"a çevrilir



*Əvvəli 1-ci səh.*

Təkcə 2017-2018-ci illərin istehsal mövsümündə dünya üzrə 28,1 milyon ton mahlıc istehsal edilmişdir. Onun 6,2 milyon tonu Hindistanın, 6 milyon tonu Çinin, 4,6 milyon tonu ABŞ-ın payına düşmüşdür. ABŞ mahlıc ixracına görə də liderdir. Qeyd edilən illərdə bu ölkə 3,4 milyon ton mahlıc ixrac etmişdir. Ümumiyyətlə, bu gün dünyada 100-dən artıq ölkədə pambıq əkilir və Azərbyacan da onlardan biridir.

Bütün bu üstünlüklərə görədir ki, Prezident İlham Əliyevin aqrar sektorda apardığı islahatlar çərçivəsində ənənəvi bitkiçilik sahələrinin, o cümlədən pambıqçılığın dirçəldilməsi barədə təşəbbüsü ölkəmizin fermerləri, torpaq sahibləri tərəfindən can-başla qarşılandı. "Azərbaycan Respublikasında pambıqçılığın inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramı"nın qəbulu isə Prezidentin bu təşəbbüsünün reallaşmasına təkan verdi. Ümumiyyətlə, ölkəmizdə pambıqçılığın yeni inkişaf dövrü 2016-cı ildən başlayır. Bu yeni dövrün nə demək olduğunu bilmək üçün rəqəmlərə nəzər salaq: əgər 2015-ci ilə ölkə üzrə pambıq əkin sahələri 18,7 min hektar, məhsul istehsalı 35,2 min ton olmuşdursa, ondan bir il sonra - 2016-cı ildə əkin sahələri 2,7 dəfə artırılaraq 51,4 min hektara, istehsal 2,5 dəfə çoxalaraq 89,4 min tona çatmışdır. Ötən il isə müstəqillik dövründə ölkə üzrə rekord miqdarda - 230,4 min ton pambıq istehsal olunmuşdur. Bu, 2015-ci ilin göstəricisindən 6,5 dəfə çoxdur.

Amma bu gün dövlət başçısı qarşıya ölkəmizdə pambıqçılığın inkişafına, daha doğrusu, məhsul istehsalının artımına əkin sahələrinin genişləndirilməsi yox, məhsuldarlığın yüksəldilməsi hesabına nail olmaq vəzifəsini qoymuşdur.

Hazırda pambıq sahələrində becərmənin qızğın vaxtıdır. Əkinçilər yüksək məhsul götürmək üçün gecələrini gündüzə qatırlar. Rayonlardan verilən məlumatlara əsaslanıb demək mümkündür ki, bu mövsüm də Azərbaycanda bol pambıq istehsal olunacaq. Bol pambıq isə ilk növbədə həm də yaxşı qazanc deməkdir. Mütəxəssislər hesablayıblar ki, 1 hektar üzrə məhsuldarlıq 20 sentner olarsa, 520, 25 sentner təşkil edərsə, 850, 30 sentnerə çatarsa, 1300 manat xalis gəlir götürmək mümkündür. Ölkədə 100,1 min hektar sahədə pambıq əkildiyini nəzərə alsaq, bu hesaba fermerlərin orta məhsuldarlıq 20 sentner olarsa, ümumilikdə 52 milyon, 25 sentner təşkil edərsə, 85 milyon, 30 sentnerə çatarsa, 130 milyon manat qazanmaq imkanları var.

Onu da qeyd edək ki, bu gəlirin bir hissəsi dövlətin pambıqçılara ödədiyi subsidiyalardır. Hazırda fermerlərin əkin zamanı sahələrə verdikləri gübrənin qiymətinin 70 faizini dövlət ödəyir. Yəni pambıqçılar becərmə zamanı istifadə etdikləri gübrənin dəyərinin yalnız 30 faizini verirlər. Bundan əlavə, tədarükçülər istehsalçılara təhvil verdikləri xam pambığın hər tonuna 100 manat subsidiya ödəyirlər. Yalnız ötən il 15,6 min nəfərdən çox istehsalçı 230,4 min ton xam pambıq üçün dövlətdən 23 milyon manatdan çox subsidiya almışdır.

Pambığın alış qiymətinin qaldırılması da fermerlərin bu sahəyə marağının artmasına səbəb olmuşdur. Xatırladaq ki, ötən il pambıq əkən kəndlilərin məhsul istehsalına, yığımına həvəsləndirilməsi və onların maddi rifahının daha da yüksəldilməsi üçün məhsulun növlər üzrə alış qiymətləri hər ton üçün 50 manat artırılmışdır. Bu artımdan sonra birinci növ pambığın alış qiyməti 650, ikinci növ - 630, üçüncü növ - 590, dördüncü növ - 550 manat olmuşdur. Nəticədə fermerlər təkcə həmin artımdan 13 milyon manatadək əlavə gəlir əldə etmişlər.

Pambıqçılıq valyuta gətirdiyindən, eyni zamanda Azərbaycan iqtisadiyyatı üçün sərfəli sahə hesab olunur. Təkcə ötən ilin 9 ayı ərzində ölkəmizdə istehsal olunan 79,3 min ton mahlıcdan 51,5 min tonu ixrac edilib və ondan 78 milyon dollar valyuta qazanılıb. Emal müəssisələrində istehsal edilmiş 17 min ton pambıq ipliyinin 6,8 min tonunun ixracından isə Azərbaycana 17 milyon dollar vəsait daxil olub.

Amma pambıqçılığın üstünlükləri təkcə bunlar da deyil. Hazırda kənd təsərrüfatında bu sahə həm də yüksək əməktutumluğu ilə fərqlənir. Yenə faktlara müraciət edək: ötən illə müqayisədə cari il 20 rayon üzrə pambıq əkən fermerlərin sayı 2300 nəfərdən çox artaraq 18 minə çatmışdır. Üstəlik Azərbaycanda 23 pambıq zavodu, 7 iplik fabriki, 3 pambıq yağı istehsalı müəssisəsi fəaliyyət göstərir ki, onların da hər birində yüzlərlə adam çalışır. Ümumiyyətlə, pambıqçılıqda çalışan işçilərin sayı təxminən 200 min nəfərdən çoxdur. Razılaşaq ki, aqrar sektorda təkcə bir sahə üçün bu, kiçik rəqəm deyil.

Bütün dediklərimizi və demədiklərimiz amilləri nəzərə alsaq, pambığın yenidən Azərbaycan üçün "ağ qızıl"a çevrilməsini reallıq kimi qəbul etmək lazımdır.

***Raqif MƏMMƏDLİ,***
***"Azərbaycan"***

## Elektron məlumat bankının proqram təminatında təkmilləşdirmələr aparılıb



Uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının proqram təminatında bir sıra təkmilləşdirmələr aparılıb.

AZƏRTAC xəbər verir ki, bununla bağlı Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində keçirilən tədbirdə komitənin sədri Ramilə Seyidova çıxış edərək respublikamızda dövlət uşaq siyasətinin uğurla reallaşdırıldığını vurğulayıb.

Qeyd olunub ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra uşaq hüquqlarının həyata keçirilməsi istiqamətində bir sıra uğurlu addımlar atılıb. Azərbaycan beynəlxalq konvensiyalara qoşulub, milli qanunvericilik sahəsində uşaq hüquqlarının təmin olunması istiqamətində təkmil qanunvericilik sistemi yaradılıb.

"Naxçıvan Muxtar Respublikasında da dövlət uşaq siyasəti uğurla həyata keçirilir. Belə ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2012-ci il 24 may tarixli Fərmanı ilə "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"nın təsdiq edilməsi bu sahədə aparılan ardıcıl və məqsədyönlü dövlət siyasətinin bariz nümunəsidir", - deyən Ramilə Seyidova vurğulayıb ki, müvafiq fərmana uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankının təşkili və aparılması Qaydası"nın təsdiq edilməsi haqqında" 2013-cü il 23 yanvar tarixli qərar qəbul edib. "Naxçıvan Muxtar Respublikasında uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti Qaydası"na uyğun olaraq Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsində 2016-cı ildən uşaq hüquqlarının həyata keçirilməsinə dair elektron məlumat bankı istifadəyə verilib.

Komitə sədri qeyd edib ki, məlumat bankının administratoru Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, istifadəçiləri isə uşaq hüquqlarını qoruyan 17 təşkilatdır. Elektron məlumat bankı aidiyyəti dövlət orqanları tərəfindən daxil edilən məlumatlar əsasında formalaşır. Məsul dövlət orqanlarının müvafiq olaraq istifadəsi üçün nəzərdə tutulub.

Ramilə Seyidova deyib: "Ötən dövr ərzində elektron məlumat bankına istifadəçilər tərəfindən 26 mindən çox məlumat daxil edilib. Məlumatların daha operativ daxil edilməsi və statistik təhlil aparılması məqsədilə proqram təminatında yeni təkmilləşdirmələr aparılıb. Yenilənmiş proqram bu gündən istifadəyə verilib".

Tədbirdə proqrama operatorlar tərəfindən daxil edilən məlumatların administrator tərəfindən təhlili nəticəsində aşkarlanan nöqsanlar diqqətə çatdırılıb. Tezliklə bu nöqsanların aradan qaldırılacağı bildirilib.

Sonra Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyində internet saytlarının hazırlanması və təhlükəsizliyinin qorunması məsələləri üzrə işçi qrupunun rəhbəri Şahin İsmayılov elektron məlumat bankının proqram təminatında edilmiş yeniliklər barədə məlumat verib və istifadəçilərin suallarını cavablandırıb.

Mərkəzi və yerli icra hakimiyyətləri orqanları tərəfindən bu sahə üzrə təyin edilmiş məsul şəxslərin iştirak etdiyi tədbirin sonunda operatorlara elektron məlumat bankının administratoru tərəfindən istifadəçi adı, parol və digər bağlantı parametrləri verilib.

## Rəqəmsal ödənişlərin həcmi artır

Prezidentin 2018-ci il 26 sentyabr tarixli sərəncamı ilə təsdiq edilən "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın icrası ilə bağlı tədbirlər davam edir.

Mərkəzi Bankın yaydığı məlumatda bildirilir ki, cari ilin birinci yarımili üzrə ölkədə banklararası ödəniş sistemləri vasitəsilə aparılan ödəniş əməliyyatlarının həcmi 131,3 milyard manat, sayı 25 milyon 378 min ədəd təşkil etmiş və ötən ilin analoji dövrü ilə müqayisədə göstəricilər üzrə müvafiq olaraq 5,1 və 41,3 faiz artım müşahidə olunmuşdur.

Hökumət Ödəniş Portalı (HÖP) üzərindən cari ilin I yarımili üzrə həyata keçirilən əməliyyatların həcmi 1 milyard 412 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 34 faiz artım deməkdir. Sözügedən əməliyyatların 551 milyon manatı nağdsız qaydada həyata keçirilmişdir. Bu göstərici 2018-ci ilin I yarımili ilə müqayisədə 3,4 dəfə artmışdır.

İyunun sonuna olan məlumata görə, ölkə üzrə ödəniş kartlarının sayı keçən ilin müvafiq dövrünə nisbətən 14,7 faiz artaraq 7 milyon ədədi ötmüşdür. Bunlardan təmassız ödəniş kartlarının sayı 998 min ədəd olmuşdur. Təmassız kartların sayı 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,4, təmassız əməliyyatların sayı isə 4,6 dəfə artmışdır.

6 ay üzrə ölkə daxilində ödəniş kartları ilə aparılmış əməliyyatların həcmi 9 milyard 532 milyon manat təşkil etmişdir ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 24 faiz çoxdur. Ödəniş kartları ilə aparılmış əməliyyatlarda nağdsız hesablaşmaların çəkisi 20 faiz təşkil etmişdir. Xatırladaq ki, ötən ilin analoji dövründə bu göstərici 16 faiz olmuşdur.

30 iyun tarixinə Azərbaycan üzrə bankomatların sayı 2571 ədəd olmuşdur və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 90 ədəd çoxdur. Bankomatların 1373-ü Bakıda, 1198-i isə digər şəhər və rayonlarda yerləşir. Ölkədə banklar tərəfindən quraşdırılmış POS-terminalların sayı isə 63396 ədəd olmuşdur ki, bunun da 25747 ədədi təmassız POS-terminallardır. 2018-ci ilin I yarımili ilə müqayisədə təmassız POS-terminalların sayı 26 faiz (5305 ədəd) artmışdır.

Məlumatın sonunda bildirilir: "Aparılan təhlillər bir daha göstərir ki, ölkədə rəqəmsal ödəniş infrastrukturunun inkişafı, ictimaiyyətdə nağdsız ödəniş vərdişlərinin formalaşdırılması istiqamətində görülən işlər öz müsbət nəticələrini verməkdədir. "2018-2020-ci illərdə Azərbaycan Respublikasında rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqramı"nın hədəflərinə nail olunması istiqamətində işlər bundan sonra da davam etdiriləcəkdir".

## "ADY Express"lə Bakı limanı yeni növ tranzit yükün nəqlinə başlayıb

"Azərbaycan Dəmir Yolları" QSC-nin törəmə şirkəti olan "ADY Express" MMC və "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC yeni növ tranzit yükün nəqlinə başlayıb.

MMC-dən verilən məlumata görə, "ADY Express" və Bakı limanının birgə əməkdaşlığı nəticəsində ilkin həcmi 40 min ton olan yeni növ tranzit yükün - nitrat ammoniumun (selitra) daşınması Gürcüstan tərəfi ilə razılaşdırılıb və bu yükün nəqlinə başlanılıb. Ekspeditor rolunda çıxış edən "ADY Express" şirkəti Rustavi şəhərindən 126 vaqondan ibarət olan selitranın ilk göndərişini Ələtdəki yeni Bakı limanına çatdırılmasını həyata keçirib.



Limanda isə 8800 ton selitranın 2 gəmiyə aşırılması uğurla reallaşdırılıb və yük Türkmənbaşı Limanına yola salınıb. Razılaşmaya əsasən, ilkin həcmin (40 min ton) avqustda nəqli həyata keçirildikdən sonra cari ilin sonunadək eyni marşrutla əlavə 80 min ton selitra yükünün daşınması nəzərdə tutulur.

# UNESKO-nun Baş direktoru və Dünya İrs Mərkəzinin direktoru Azərbaycan Hökumətinə təşəkkür məktubu göndərib

UNESKO-nun Baş direktoru xanım Odre Azuley Azərbaycan Respublikası Hökumətinə Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirilməsi ilə bağlı təşəkkür məktubu göndərib.

AZƏRTAC xəbər verir ki, məktubda ölkəmizin UNESKO-nun bu nüfuzlu tədbirinə yüksək səviyyədə evsahibliyi etdiyi bildirilir və Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına hazırlıq prosesi, sessiyanın təşkili, iclasların effektiv idarə edilməsinə görə minnətdarlıq ifadə olunur.

Baş direktor Bakıya səfəri zamanı Qobustan qoruğunu ziyarət etməkdən zövq aldığını da xüsusi qeyd edir: "Mən şəxsən Qobustanın timsalında Azərbaycanın zəngin mədəni irsini kəşf etməkdən, Azərbaycan Hökumətinin və Mədəniyyət Nazirliyinin bu məkanın qorunub saxlanılmasında, təbliğində nümayiş etdirdiyi səylərə şahidlik etməkdən xüsusilə məmnun oldum".

Məktubda, həmçinin Azərbaycan Respublikasının Mədəniyyət naziri noyabrın 19-da UNESKO tərəfindən təşkil olunacaq Baş Konfransın 40-cı sessiyası öncəsi Mədəniyyət Nazirləri Forumunda iştiraka dəvət olunur.

Baş direktorun məktubu bu fikirlərlə bitir: "Mən Bakını UNESKO və Azərbaycan arasında dinamik inkişaf edən münasibətlər fonunda tərk etdim və bu, məni çox məmnun etdi. Bir daha əmin oldum ki, Sizin dəstəyinizə daim etimad edə bilərəm".

* * *

UNESKO-nun Dünya İrs Mərkəzinin direktoru xanım Mextild Rossler də Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası ilə bağlı Azərbaycan Hökumətinə təşəkkür məktubu göndərib. Məktubda ölkəmizin bu mötəbər tədbirə yüksək səviyyədə evsahibliyi etməsi təqdir olunur. Qeyd edilir ki, Bakı sessiyasında gündəlikdə duran bir çox məsələlər zamanında və müvəffəqiyyətlə həllini tapıb. Xanım Rossler Dünya İrs Mərkəzindəki həmkarları adından iclasların yüksək səviyyəli təşkilinə görə Azərbaycan Hökumətinə, o cümlədən gündəlik planlaşdırmalara birbaşa cəlb olunan, UNESKO katibliyinə hər cür lazımi köməklik göstərən komandaya xüsusi minnətdarlığını ifadə edib: "Biz iclasların keçirildiyi möhtəşəm məkanı, göstərilən peşəkarlığı, heyətin alicənablığını, yüksək səviyyədə təşkil olunan xidməti, iclasların koordinasiyasını həyata keçirən şəxslərin isti münasibətini xüsusi qiymətləndiririk".

Dünya İrs Mərkəzinin direktoru məktubunda, həmçinin Azərbaycanın Mədəniyyət naziri noyabrın 27-28-də UNESKO-nun Parisdəki mənzil-qərargahında keçiriləcək Dünya irsi üzrə Konvensiyanın iştirakçısı olan dövlətlərin 22-ci ümumi iclasına dəvət edilib. Bildirilir ki, iclasda Ümumdünya İrs Komitəsi 43-cü sessiyasının sədrinin komitənin fəaliyyəti ilə bağlı hesabatının dinlənilməsi nəzərdə tutulur.

Mextild Rossler məktubun sonunda bir daha davamlı əməkdaşlığa, dünya irsi üzrə Konvensiyanın həyata keçirilməsində göstərilən dəstəyə görə Azərbaycan Respublikası Hökumətinə minnətdarlığını bildirir.

Xatırladaq ki, iyunun 30-dan iyulun 10-dək Bakıda UNESKO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilib. Azərbaycan 2015-ci ildən Ümumdünya İrs Komitəsinin üzvüdür və 2019-cu ildə komitəyə sədrliyi həyata keçirir. 43-cü sessiyanın iclaslarına Azərbaycan Respublikasının Mədəniyyət naziri sədrlik edib.

Sessiyada 180-dən çox ölkədən 2500-dən çox nümayəndə, o cümlədən nazirlər, yüksək səviyyəli rəsmilər, eləcə də beynəlxalq təşkilatların rəhbər və məsul şəxsləri iştirak ediblər.

*UEFA Çempionlar Liqası:*

# "Qarabağ" komandası "Dundalk"ı darmadağın edib



UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün ikinci təsnifat mərhələsinin cavab qarşılaşması çərçivəsində iyulun 31-də keçirilən "Qarabağ" - "Dundalk" oyunu başa çatıb.

AZƏRTAC xəbər verir ki, görüş Ağdam təmsilçisinin 3:0 hesablı qələbəsi ilə yekunlaşıb.

Qarşılaşmada hesab erkən qolla açıla bilərdi. Belə ki, Riçard Almeydanın ötürməsindən sonra Mahir Emrəli qapıçı ilə təkbətək qalıb. Azərbaycan milli komandasının futbolçusunun vurduğu zərbə qapıdan yan keçib. Görüşün 13-ü dəqiqəsində ağdamlılar hesabı açmağa nail olublar. "Qarabağ"ın ispaniyalı futbolçusu Xayme Romeo uzaq məsafədən yaxın küncü dəqiq nişan alaraq baxımlı qola imza atıb - 1:0. Qoldan sonra hücumlarını dayandırmayan "Qarabağ" növbəti təhlükəli vəziyyəti görüşün 24-cü dəqiqəsində yaradıb. Ailtonun cinah ötürməsindən sonra Filip Ozobiçin qapıya vurduğu zərbəni rəqibin qapıçısı uzaqlaşdıra bilib. Həmin epizodda Filip Ozobiç zədələnərək meydanı tərk edib. Onun yerinə meydana Dani Kintana çıxıb. Birinci hissənin sonrakı dəqiqələrində hər iki komandanın cəhdlərinə baxmayaraq, hesab dəyişməyib.

Qarşılaşmanın ikinci hissəsində daha üstün oyun nümayiş etdirən "Qarabağ" ikinci hissədə daha iki qol vurub. Matçın 76-cı dəqiqəsində Ailton Maksim Medvedevin cinah ötürməsindən sonra başla dəqiq zərbə endirib - 2:0. Oyunun 87-ci dəqiqəsində Qurban Qurbanovun yetirmələri hesab arasındakı fərqi üç topa çatdırıblar. Xayme Romeo adını tabloya yazdıraraq oyunda dubla imza atıb.

Görüş 3:0 hesabı ilə "Qarabağ" klubunun xeyrinə başa çatıb.

Beləliklə, Ağdam təmsilçisi UEFA Çempionlar Liqasının 2019-2020-ci il mövsümünün ikinci təsnifat mərhələsini uğurla başa vuraraq növbəti mərhələyə vəsiqə qazanıb.

"Qarabağ"ın növbəti mərhələdəki rəqibi Kipr təmsilçisi APOEL olacaq.

# Eyni xislətlilər

## Erməni terrorçu-daşnak qüvvələri faşizmin xidmətində

**II hissə**



**İozef Göbbels** *nasist rəhbərliyinə daxil olan beş liderdən biri olmuşdur. O, 1897-ci il oktyabrın 29-da anadan qüsurlu doğulmuşdur. Ayağının biri o birindən qısa idi. Bonn Universitetində filologiya, almanizm və tarixi öyrənmişdir. Göbbels fəlsəfə doktoru adını almışdır.*

*Göbbelsin Maarif və Təbliğat naziri olduğu dövrdə çox sayda ziyalılar-yazıçılar, dirijorlar, bəstəkarlar - Bertold Brext, Bexer, Bruno Frank, Raul Xindemit, Piskator, Reynxard, Kandinsk və b. mühacirət etmişlər.*

*Hitlerin sadiq dostu Göbbels son ana kimi Hitleri tərk etməmiş, bunkerdə qalmışdı. Ömrünü faciəli başa vuran Göbbels əvvəl altı uşağını öldürmüş, sonra arvadını və özünü zəhərləmişdir.*



**A.Rozenberq**in strateji planına əsasən Hitler Almaniyasının himayəsi altında "Ermənistan Baş Komissarlığı" yaradılmalı idi. III Reyx daşnakların sədaqət və xidmətləri müqabilində **Qarabağın, Naxçıvanın və Axalkalakinin bir hissəsinin ermənilərə verilməsini vəd etmişdi.** Bundan başqa, Qarabağdan olan ermənilər SSRİ-yə qarşı üsyan qaldırmalı, bu əraziyə Almaniya ermənilərindən ibarət qanunsuz hərbi birləşmələr və xüsusi təhsil almış dəstələr göndərilməli idi. (Эдуард Абрамян. Кавказцы в Абвере. М., 2006, c. 48, 52, 136)

Hitlerə sədaqətlə qulluq edən daşnakların siyahısında **Artaşes Abeqyan, Vaçaq Artaşesoviç Abeqyan, Akop Petroviç Aziyan, Vaqan Tetesoviç Ayrapetyan, Qayk Asatryan, Tiqran Baqdasaryan, Suren Bekzadyan, Nikolay Ambarsumoviç Gevorkyan, Aleksandr Xatisyan, Aram Konstantinoviç Mirimanyan, Alfred Muradyan, Aleksiy Sarkisyan, Vartan Mixayloviç Sarkisyan, Misak Akopoviç Torlakyan** və onlarca **"yan"**ların adları vardır.

**Abeqyan Artaşes**in 1943-1945-ci illərdə təxminən 70 yaşı olub. Naxçıvanın Təzəkənd kəndində doğulan, Almaniyanın işğal olunmuş Şərq əyalətləri üzrə nazirliyinin rəsmi əməkdaşı olan A.Abeqyan 1941-ci ildə Rozenberqlə danışıqlar apararaq Almaniyanın Sovet İttifaqına qarşı mübarizəsində daşnakların xidmətlərini təklif edib.

A.Abeqyan 1942-ci ildə Erməni Milli Komitəsinə rəhbərlik edib, eyni zamanda "Hayastan" qəzetinin redaktoru olub. 1943-cü ilin sonunda Almaniyanın işğal olunmuş Şərq əyalətləri üzrə nazirliyinin Polşanın Kelts şəhərindəki xüsusi düşərgəsində anti-sovet məzmunlu mühazirələr oxuyub.

**Abeqyan Vaçaqan (Vaçe) Artaşesoviç** 40 yaşında olub. 1921-ci ildə o, atası ilə birlikdə Almaniyaya mühacirət edib. Almaniyanın işğal olunmuş Şərq əyalətləri üzrə nazirliyinin tərcüməçisi kimi hərbi əsir düşərgələrinə gedərək "Daşnaksütyun" partiyasına yeni üzvlərin cəlb olunması ilə məşğul olub və alman müəssisələrində işləmək üçün hərbi əsirləri seçib. 1944-cü ilin fevralından Erməni Milli Komitəsində dəftərxana müdiri vəzifəsini tutub.

**Avalyan Levonbəy Artyomoviç** 1889-cu il təvəllüdlüdür. Dağlıq Qarabağ Muxtar Vilayətinin Qazan kəndində dünyaya gəlib. "Abverqrup 114" - "Dromedar" alman kəşfiyyat orqanının agenti olub. 1941-ci ilin payızında Kanayan Dronun rəhbərliyi ilə agenturaya cəlb olunub, kəşfiyyat-təxribat tapşırığı ilə Qızıl Ordunun arxa cəbhəsinə atılıb. İşğal olunmuş ərazilərdə əks-kəşfiyyat işləri ilə məşğul olan L.Avalyan alman ordusu geri çəkilərkən arvadı ilə birlikdə Berlinə qaçıb. 1944-cü ilin sonundan Erməni Milli Komitəsinin sədri olub, sonralar Ştutqart şəhərinə, oradan Fransaya gedib.

(Əvvəli qəzetin 31 iyul tarixli nömrəsində)

**Əzizyan Akop Petroviç** (uydurulmuş adı "Vatslav", həm də "Vyaçeslav") 35-45 yaş arasında olub, Ermənistan SSR-in Stepanavan rayonunda doğulub. 1921-ci ildə Fransaya mühacirət edib. Rus, alman, fransız dillərini öyrənmişdi. "Abverqrup 114" -"Dromedar" kəşfiyyat orqanının rəsmi əməkdaşı olub. Müharibənin əvvəlində Kanayan Dro ilə sovet-alman sərhədini gəzərək hərbi əsirlərdən istifadə, sovet arxa cəbhəsinə, o cümlədən işğal olunmuş Krım ərazisində əsirlərin agenturaya cəlbi və atılması ilə məşğul olub. A.Əzizyan alman orden və medalları ilə təltif olunub. 1945-ci ilin yanvarında Berlində yaşayan Akop Əzizyan oradan Ştutqarta getmişdir.

**Ayrapetyan Vaqan Tatevosoviç** 1890-cı il təvəllüdlü olub. Ermənistan SSR-in Oktamberyan rayonunun Cəfərabad kəndində doğulub. Ermənistan Dövlət Universitetinin tarix fakültəsini bitirib, universitetdə tarix fənnini tədris edib. 1942-ci ildə Krımda almanlara əsir düşmüş Qızıl Ordunun keçmiş hərbi qulluqçusu V.T.Ayrapetyan alman agenti olub, Rovno şəhərində hərbi əsir düşərgəsində polis kimi xidmət etmişdir. 1942-ci ilin sonunda Polşanın Kelts şəhərində xüsusi hərbi əsir düşərgəsində taqım komandiri olan Vaqan Ayrapetyan 1943-cü ilin martında Berlin yaxınlığındakı Vustranda həm oxumuş, həm də imperiyanın işğal olunmuş Şərq əraziləri nazirliyinin təbliğatçılar məktəbində mühazirə oxumuşdur.

Təhsilini başa vuran V.Ayrapetyan məktəbdə mahnı və rəqs ansamblında saxlanılmış, ansamblın tərkibində Almaniya və Fransa şəhərlərində konsertlər vermişdir. Sonralar məktəbin mətbəəsində işləmişdir. Erməni milli "Daşnaksütyun" partiyasının üzvü olmuşdur. 1945-ci ilin əvvəlində Almaniyanın Rotsvayl şəhərinə gedən Vaqan Ayrapetyan həmin ilin iyun-avqust aylarında Sovet İttifaqına qaytarılmışdır.



**Asatryan Qayk** 1909-cu ildə Türkiyənin Alaşkert şəhərində anadan olmuşdur. E.Abramyan "Кафказцы в Абвере" kitabında Türkiyənin ərazisində yerləşən Alaşkerti Qərbi Ermənistan ərazisi hesab etmişdir.

Qayk Asatryan "Daşnaksütyun" nun məktəbli ittifaqına daxil olmuş və Eduard Abramyanın yazdığına görə *"Türkiyə rejimi tərəfindən işğal olunmuş Qərbi Ermənistan vilayətində"* milli-azadlıq hərəkatında iştirak etmişdir. Asatryan bir neçə qəzet və jurnalların redaktoru olmuş, erməni məsələsinə dair məqalə və oçerklər yazmışdır. 1918-1919-cu illərdə İrəvanda onun redaktorluğu ilə məktəbli ittifaqı orqanı "Şant" ("İldırım") nəşr olunmuşdur. Sonrakı illərdə Q.Asatryan "Xrovk" ("Üsyan") yarımilli fəlsəfi "Нация и Родина" ("Millət və Vətən") jurnalını redaktə etmişdir. Həmin vaxtlarda Asatryan Qaregin Njde ilə yaxınlaşmış, onun dostu və döyüş yoldaşı olmuşdur.

Erməni tarixçisi Eduard Abramyanın fikrincə, Q.Asatryan 1921-ci ildə fevral inqilabının yatırılmasından və Dağlıq Ermənistanın (Sünik) müdafiəsinin dayandırılmasından sonra general Njde ilə birlikdə ölkəni tərk edərək Avropaya getmiş, "erməni məsələsinin həlli uğrunda" siyasi mübarizəni davam etdirmişdir.

Q.Asatryan 1930-cu ildə Paris universitetinin filologiya fakültəsini bitirərək doktor elmi dərəcəsi almış, tarix və fəlsəfəyə dair bir neçə elmi işi nəşr olunmuşdur.

Bolqarıstanda məskunlaşan Q.Asatryan Njde ilə birgə Avropa erməni diasporunun həyatında və milli hərəkatda iştirak etmişdir.

Qayk Asatryan "Daşnaksütyun" partiyasının bəzi xadimləri ilə birlikdə III Reyxin rəhbərliyi ilə əlaqəyə girmiş və İkinci Dünya müharibəsinin əvvəlində almanlarla əməkdaşlığa başlamışdır. Asatryan əmin idi ki, Almaniyanın köməyi ilə *"Türkiyə tərəfindən tutulmuş"* "Qərbi Ermənistanın ərazisinin" azad olması və Şərqi Ermənistana *(Ermənistan SSR-ə-M.Ə.)* birləşdirilməsi mümkün olacaqdır.

Alman ordusu tərkibində ilk erməni döyüş bölmələrinin yaradılmasının başlanğıcında və "Ermənistan Baş rexskomissarlığı" layihəsi təsdiq olunduqdan sonra Asatryan vəzifə almış və general Njdenin tapşırığı ilə erməni legionlarının tərkibində kadrlar və şəxsi heyətlə siyasi iş aparmışdır.

Müharibə başa çatdıqdan sonra Asatryan Bolqarıstanda yaşamış və milli hərəkat məsələlərinə dair yazılar yazmışdır. 1956-cı ildə Sofiya şəhərində vəfat etmişdir.

**Baqdasaryan** (uydurulmuş adı Simonyan, yaxud Sarkisyan) **Tiqran** ("Tiqris") İstanbul sakini olmuşdur. Müharibə illərində 50-55 yaşlarında olmuş, mühacir kimi, Parisdə yaşamışdır. Türk və fransız dillərini bilmişdir. T.Baqdasaryan alman kəşfiyyatının rəsmi əməkdaşı kimi müharibə dövründə "Abverqrup 114"-"Dromedar" orqanının Pyatiqorskdakı filialına rəhbərlik etmiş, sovet ordusu arxası üçün agentlərin cəlbi və atılması ilə məşğul olmuş, işğal olunmuş ərazilərdə agentura yaymışdır. 1942-ci ilin sonunda Baqdasaryan Rotvaylda (Almaniyada şəhər) Erməni Milli Komitəsinə rəhbərlik etmiş, 1945-ci ildə Berlindəki "Erməni komitəsi"nə rəhbər təyin olunmuşdur. "Hayastan" qəzetinin məsul redaktorlarından biri hesab olunurdu.

İrəvan sakini olmuş **Gevorkyan (Gevorkov) Nikolay Ambarsumoviç** (uydrulmuş adı Aleksandroviç, "Doktor Sikorskiy") 47-48 yaşlarında idi. Xarkov universitetini bitirmiş, erməni ordusunda həkim kimi xidmət etmiş, daşnakların dağıdılmasından sonra Parisə qaçmış, "Daşnak mərkəzi"nin fəal iştirakçısı olmuşdur.

N.Gevorkyan da digər həmvətənləri kimi, "Abverqrup 114"-"Dromedar" kəşfiyyat orqanı ilə rəsmi əməkdaşlıq etmiş, 1942-1943-cü illərdə Krımda Rostov-Don, Stavropol, Mariupol, Nikolayev şəhərlərində, Voronovits qəsəbəsində hərbi əsirlərin sorğusu və sovet ordusu arxasına atılması üçün agentlərin cəlbi ilə məşğul olmuşdur.

**Mirimanyan Aram Konstantinoviç** (uydurulmuş adı "Dərviş") İğdır şəhər sakini olmuşdur. Bəhs olunan dövrdə 48-50 yaşlarında idi. "Abverqrup 114"-"Dromedar"ın agenti kimi 1942-1943-cü illərdə Kislovodskidə 5 auksion mağaza sahibi olmuşdur. A.Mirimanyan general Dro Kanayan ilə əlaqə yaratmış və onun tapşırığı ilə sovet ordusu arxasına atılmaq üçün agentlərin seçilməsi və cəlbi ilə məşğul olmuşdur. Erməni Milli Komitəsinin rəhbərlərindən biri idi. 1943-cü ilin may-iyun aylarında Vrovnivitsa qəsəbəsində kəşfiyyat orqanında olmuş, oradan Berlinə göndərilmiş, "Hayastan" qəzetinə redaktorluq etmişdir. Anti-sovet məzmunlu məqalələr və şeirlər yazmışdır. 1945-ci ildə Rotvayl şəhərində (Almaniyada şəhər) Erməni Milli Komitəsinin üzvü olmuş, həmin ildə sovet hərbi əsirlərinin düşərgəsində anti-sovet təbliğatı apararaq erməniləri Sovet İttifaqına qayıtmamağa çağırmışdır. Sovet İttifaqına qayıtmayanlara xarici pasport vermişdir.

**Muradyan Alfred** Amasya sakini olmuşdur. 1908-ci ildə anadan olan Alfred Muradyan mühacirdir. "Daşnaksütyun" partiyasının üzvü olan Alfred Muradyan 1921-ci ildən Berlində yaşamışdır. Alman və fransız dillərini mükəmməl, rus dilini zəif bilmişdir. Alman kəşfiyyat orqanı "Zeppelin"in agenti, alman ordusunun mayoru idi. 1941-ci ildə Berlində almanlar tərəfindən yaradılan "Qafqaz komitəsi"nin iştirakçısı olan Alfred Muradyan 1942-ci ilin noyabrında alman silahlı qüvvələri rəhbərliyində Erməni Milli Komitəsinin nümayəndəsi hesab olunurdu. Tez-tez Auşvitsdəki (Osvensim) kəşfiyyat məktəbinə getmiş və göstərilən komitədə müəllim kimi anti-sovet məzmunlu mühazirələr söyləmişdir. "Armenakan" erməni milli təşkilatını (sonralar təşkilat partiyaya çevrilmişdir-M.Ə.) yaradanlardan və rəhbərlərindən biridir. 1943-cü ilin mayında "Milli legionlar" birləşməsinin şöbə rəisi olmuşdur. 1943-cü ilin noyabrında Erməni Milli Komitəsində təbliğat şöbəsinə rəhbərlik etmişdir. Göbbelsin hörmətini qazanmışdır. **(www/moderator/az >news>)**

A.Muradyan Fransada yerləşən 813-cü erməni batalyonunun 4 ay komandiri olmuş, 1944-cü ilin fevralından polkovnik (sonralar general) Vartan Sarkisyanın rəhbərliyində olan Erməni Birləşmiş Qərargahının təbliğat şöbəsinin rəhbəri olmuşdur. 1949-cu ildə Münxendə olmuş, sui-qəsddən sonra ABŞ-a getmişdir **(Абрамян Э. Кафказцы в Абвере. M.,2006, s.220).**



**Sarkisyan Vartan Mixayloviç** 1899-cu il təvəllüdlü olub Tbilisi sakini idi. Atası dəmiryolu fəhləsi olmuşdur. 1917-ci ildə məktəbi praporşik kimi bitirmiş, podporuçik rütbəsində türk cəbhəsinə göndərilmişdir. Çar ordusu komandanlığı onu IV dərəcəli "Xaç"la təltif etmişdir. 1918-ci ildə Vartan Sarkisyan türklərə əsir düşmüş, Türkiyəyə "erməni məsələsi"ni incələməyə gələn amerikan generalı Habordun tapşırığı ilə əsirlikdən azad olunmuşdur **(https://azvzion.az >news> gizli...).** 1919-cu ilin əvvəlində könüllü olaraq erməni ordusu sıralarına daxil olan Vartan Sarkisyan pulemyot rotasının komandiri olmuş, 1920-ci ildən 1927-ci ilədək İrəvanda erməni atıcı diviziyasında xidmət etmiş, sonra Zaqafqaziya piyada məktəbinin sərəncamına ezam edilmiş, batalyon komandiri olmuşdur. **(https:// news.day.az azerinews)**

V.Sarkisyan 1929-cu ildən 1931-ci ilədək Moskvada hərbi mühəndis təlim və təcrübə meydanında, 1931-ci ildən Budyonnu adına Hərbi Elektrotexnika Akademiyasında qulluq etmiş, batalyon komandiri kimi cəbhəyə göndərilmiş, könüllü surətdə Almaniya ordusu tərəfinə keçmişdir. 1941-ci ilin noyabrında Vladimir-Volınski düşərgəsində olan Vartan Sarkisyan sovet ordusunun 2-ci rus zabitlər alayına komandirlik etmişdir. O, **antisovet təbliğatı aparmış, qafqazlıların alman ordusuna xidmətə daxil olmalarına, əldə silah milli respublikaların azadlığı uğrunda bolşeviklərə qarşı mübarizəyə çağırmışdır.**

V.Sarkisyanın Erməni Milli Komitəsi liderləri ilə əlaqələri olmuşdur. 1942-ci ildə alman zabiti rütbəsində hərbi əsirləri alman ordusuna cəlb etmişdir. 1942-ci ilin aprelində Berlində olan V.Sarkisyan Erməni Milli Komitəsinin üzvü kimi kazak birləşmələrinə göndərilmiş, kazak alaylarının formalaşdırılmasına kömək etmiş, 1943-cü ilin noyabrınadək onlardan birinə komandirlik etmişdir. 37-ci ordunun qərargah rəisi, general-mayor Dobroserdovu sorğu-sual etmişdir. 1943-cü ilin noyabrında V.Sarkisyan Erməni Milli Komitəsində hərbi şöbəyə rəis təyin olunmuş, polkovnik rütbəsində Erməni Birləşmiş Qərargahına rəhbərlik etmişdir.

1944-cü ilin sonunda alman ordusunda erməni qoşunlarının komandiri, SS erməni alayı, SS Qafqaz birləşmiş qoşunlarının komandiri olan V.Sarkisyan 1945-ci ildə bəzi Qafqaz komandirləri ilə birlikdə general (briqadenfürer) rütbəsi almışdır. Avstriyada müttəfiq qoşunlarına əsir düşən V.Sarkisyan SMERŞ-ə verilmiş, güllələnmişdir.



Ştandartenfürer Vartan Sarkisyan legionerlərin sıra düzülüşündə



**Torlakyan Misak Akopoviç** 1888-ci ildə Trabzon yaxınlığında Kyuşan kəndində doğulmuşdur. 1919-1920-ci illərdə erməni ordusunda xidmət etmişdir.

Misak Torlakyan terrorçu olmuşdur. O, Azərbaycanın dövlət xadimi, siyasətçi, AXC-də Daxili işlər naziri (1918), ticarət və sənaye nazirinin müavini, Qarabağ xanlığının əsasını qoymuş Pənahəli xanın nəticəsi, Azad xanın oğlu Behbud xan Cavanşiri qətlə yetirmişdir. Murat Çulcunun "Erməni intriqalarının pərdə arxası, Torlakyan davası" kitabında qeyd olunur ki, 17 iyul 1921-ci ildə Behbud xan Cavanşir həyat yoldaşı Tamara xanım, qardaşları Cümşüd və Surxayla gecə saat 23:00-da "Tərəbaşı" ailə kazinosunun italyan səfirliyinə baxan qapısından çıxaraq "Pere Palas" hotelinə yönələrkən arxadan qaçaraq Misak Torlakyan üç dəfə atəş açır. Hadisə yerinə gələn polis məmuru Əli Əfəndi Torlakyanı qandallayır. Behbud xan xəstəxanada vəfat edir. Terrorçu Torlakyanın məhkəməsi siyasiləşdirilir. **(https://az.m.wikipedia/orq >wiki> Misak...)**

Misak Torlakyan 1921-ci ildə mühacirət etmiş, Fransa və Rumıniyada yaşamışdır. Dro Kanayanın neft mədənlərində işləmişdir. 1942-ci ildə Simferopolda yaşamışdır.

M.Torlakyan da digər satqın həmvətənləri kimi, "Abverqrup 114"-"Dromedar"ın rəsmi əməkdaşı olmuşdur.

Misak Torlakyan 1942-ci ildə Dro Kanayanın rəhbərliyi ilə Krıma gəlmiş, Krımda daşnak bürosunun rəhbəri, 1943-cü ilin əvvəlindən Krım Erməni Milli Komitəsinin rəhbərlərindən biri olmuşdur. 1942-ci ilin avqustunda Krasnodar vilayətində xüsusi kəşfiyyat fəaliyyətini genişləndirmiş, Zaqafqaziya rayonuna agentlər hazırlamış və atmışdır. Qafqazın tutulması və pantürkizmin yayılmasına dair türk komandanlığının gizli sənədlərinin ələ keçirilməsi əməliyyatını həyata keçirmişdir. A.Rozenberqə təqdim olunan bu sənədlər Almaniya-Türkiyə münasibətlərinin gərginləşməsinə səbəb olmuşdur. 1944-cü ildə Misak Torlakyan alman qoşunları Balkana geri çəkiləndə oradan Keniqsberqə göndərilmişdir. (Ru. Hayaq.info Torlakən_Musak...)

Misak Torlakyan 1944-cü ilin ortalarında Vyanada olmuş və yerli Erməni Milli Mərkəzinə rəhbərlik etmişdir. Dro Kanayanın qərargahının qərarına görə, M.Torlakyan 1945-ci ildə sovet dövləti rəhbərlərindən birinə terror aktı həyata keçirmək tapşırığı almışdır. 1945-ci ilin yanvarında Berlində olan M.Torlakyan 1948-ci ildə Ştutqart yaxınlığındakı Heydelberdə yaşamış, Dro Kanayanın yaxın köməkçisi kimi onun tapşırığı ilə amerikan işğal zonasında anti-sovet işi aparmışdır.

**Suren Bekzadyan** Ararat Respublikasının Azərbaycan Xalq Cümhuriyyətindəki səfirinin oğlu idi. A.Rozenberqin hakimiyyəti altında olan işğal olunmuş ərazilərdə "Osank" təşkilatında anti-sovet təbliğatı ilə məşğul olmuş, 1942-ci ildən milli sosialist "Paykar Xoassanak" təşkilatının üzvü olmuşdur. 1942-ci ilin sonunda "Erməni İnqilabçı Federasiyası"nın liderləri bu təşkilata Erməni Milli Şurasını da qəbul etmişlər **(Илгар Нифталиев/ Историческайа призма": Армяне на службе у фашистов. https://news.day.az/politics/804595.html\).**

**Vaçaq Abeqyan** Almaniyaya mühacirət etmiş ermənidir. O, A.Rozenberqin rəhbərlik etdiyi nazirlikdə işğal olunmuş Şərq regionları üzrə tərcüməçi işləmiş, düşərgələrə gedərək əsirlərdən "Daşnaksütyun" partiyasına üzvlər toplamış, Erməni Milli Komitəsinin üzvü olmuşdur.

"AG-114"-"Dromedar" təşkilatının rəsmi üzvlərindən olan **Akop Əsiryan** almanların əsir götürdükləri sovet əsirlərinin sorğusunda iştirak etmişdir. Həmfikiri Qayk Asatryanla birgə faşist Almaniyası ilə sıx əməkdaşlıq etmiş, Njdenin Türkiyə əleyhinə erməni hərbi hissələrində hazırlıq dərsləri aparmışdır.

**Nikolay Gevorkyan** "AG-114"-"Dromedar" təşkilatının kəşfiyyatında işləmişdir. Erməni əsirlərinə yardım adı ilə SSRİ əleyhinə casuslar hazırlamış, təbliğat işləri aparmışdır.

Beləliklə, faşistlərin xidmətində olan daşnak ermənilərin bir qrupu haqqında verilən məlumatdan aydın olur ki, "Dənizdən dənizə böyük Ermənistan" xülyasında olan ermənilər, xüsusilə onların *"vətənpərvər"* liderləri heç vaxt onlara mənsub olmayan torpaqlarda fövqəladə dövlət yaratmaq arzusu ilə alman ordusu sıralarında vuruşaraq minlərlə dinc insanı, o cümlədən türkləri qətlə yetirmişlər. Bu işdə sovet tərəfindən əsir düşən və mühacirətdə olan ermənilərdən təşkil olunan erməni legionları öz qəddarlığı ilə seçilmişdir. Onlar faşist ordusu tərkibində Krımda, Şimali Qafqazda və digər yerlərdə döyüşmüşlər.

Araşdırmalar göstərir ki, müharibənin birinci ili ərzində "Erməni İnqilabçılar Federasiyası" Türkiyədə və Orta Şərqdə III Reyxin kəşfiyyat orqanları ilə sıx əməkdaşlıq etmişlər. **Milli mənsubluqdakı xəyanət xislətlərinə sadiq qalan ermənilər** 1944-cü ildə faşistləri birinci tərk etmiş, almanların əleyhinə olmuş, əslində növbəti dəfə ikiüzlülük nümayiş etdirmişlər.

***Mais ƏMRAHOV,***
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, tarix üzrə elmlər doktoru, professor***

# Qəbələ şəhəri yenidən öz qapılarını Beynəlxalq Musiqi Festivalı iştirakçılarının üzünə açıb

Dünya musiqi xəzinəsində özünə layiqli yer qazanan Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən sənətsevərlərin görüşünə gəlib. Azərbaycanın dilbər guşələrindən olan qədim Qəbələ şəhəri artıq 11-ci dəfədir öz qapılarını Beynəlxalq Musiqi Festivalı iştirakçılarının üzünə açıb.



Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin və "Gilan Holdinq"in dəstəyi ilə 2009-cu ildən uğurla davam edən Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən dünya musiqiçilərini bu qədim şəhərdə bir araya gətirib. Gözəl bir ənənəyə çevrilən bu festival öz möhtəşəmliyi ilə xarici və yerli musiqiçilərin dərin rəğbətini qazanıb.

İyulun 31-dən avqustun 5-dək davam edəcək festivalın builki proqramı əvvəlki illərdə olduğu kimi, yenə də çox zəngindir. Musiqi bayramına Rusiya, İsrail, ABŞ, İtaliya, İsveçrə, Ukrayna, Özbəkistan, Litva, Çin və Türkiyədən dünya şöhrətli dirijorlar, görkəmli musiqiçilər, orkestrlər, həmçinin Azərbaycanın tanınmış musiqi kollektivləri dəvət olunublar.

AZƏRTAC xəbər verir ki, iyulun 31-də axşam saatlarında Qəbələ Mədəniyyət Mərkəzinin zalında musiqisevərlərə Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Tələbə simfonik orkestrinin iştirakı ilə festivalın ilk konserti təqdim olunub. Cavad Tağızadənin dirijorluğu ilə gerçəkləşən konsertdə solistlər Taleh Yahyayev (bariton), Nigar Cəfərova (soprano), Mahir Tağızadə (bariton), Nəzrin Aslanlı (violin), Safura Aslan (vokal), Məhəmmədəli Paşazadə (klarnet) Azərbaycan və dünya bəstəkarlarının əsərlərini ifa ediblər.

Konsertdə F.Əmirovun "Azərbaycan kapriççiosu", "Azərbaycan elləri", S.Prokofyevin "Romeo və Culyetta" baletindən 3 fraqment, A.Campyerinin "Venesiada karnaval" (II hissə), S.Raxmaninovun "Aleko" operasından Alekonun kavatinası, C.Puççininin "Bohema" operasından Müzettanın ariyası, M.Ponsenin violin və orkestr üçün "Estrellita", Q.Qarayev və C.Hacıyevin "Vətən" operasından Mərdanın ariyası, A.Piazzolanın "Oblivion", F.Bədəlbəylinin "Anamız Azərbaycan" əsərləri səsləndirilib.

Gənc musiqiçilərin çıxışları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Festival çərçivəsində avqustun 1-də Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə kamera konserti təqdim olunacaq. Axşam saatlarında isə Mədəniyyət Mərkəzində XI Qəbələ Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi keçiriləcək.

# Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən sosial layihələr müsabiqəsinə sənəd qəbulu başlayır

Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi avqustun 1-dən etibarən "Sosial layihələr" müsabiqəsi üzrə layihələrin qəbuluna başlayır.

Qeyd edək ki, Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Regional İnkişaf" İctimai Birliyi vətəndaş cəmiyyətinin inkişafı, dayanıqlı inkişaf məqsədləri, o cümlədən ayrı-ayrı sahələr üzrə dövlət proqramlarına dəstək məqsədilə sosial layihələr müsabiqəsi elan edib.

Fonddan AZƏRTAC-a bildiriblər ki, müsabiqə vətəndaş cəmiyyətinin inkişafı və təşəbbüskarlıq mühitinin formalaşdırılması, sosial inkişafa yönələn ideya və təşəbbüslərin irəli sürülməsi və həyata keçirilməsi ilə ölkəmizin inkişafına töhfə verməyə yönəlib.

Müsabiqə üzrə iştirakçıların qeydiyyatı və layihə təkliflərinin qəbulu avqustun 1-dən 2019-cu il 20 noyabr saat 18:00-dək "Regional İnkişaf" İctimai Birliyinin rəsmi internet səhifəsində (www.riib.az) həyata keçiriləcək və nəticələr barədə müsabiqə iştirakçılarına elektron qaydada məlumat veriləcək.

Müsabiqəyə təqdim olunan layihələr cəmiyyət üzvlərinin fiziki, sosial, intellektual və mənəvi inkişafının təmin edilməsinə, habelə həyat və sağlamlığının qorunmasına dair təşəbbüsləri; elm və təhsilin inkişafına, innovativ ideyaların reallaşdırılmasına və maarifləndirmə işinin təkmilləşdirilməsinə dair təşəbbüsləri; təbiət və ətraf mühitin mühafizəsinə dair təşəbbüsləri; cəmiyyətdə tolerant və inklüziv mühitin qorunmasına, bu sahədə bərabər imkanların yaradılmasına dair təşəbbüsləri və digər sosial layihələri əhatə edir.

Müsabiqəyə Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış qeyri-hökumət təşkilatları (ictimai birlik və fondlar), ali təhsil müəssisələri, peşə və orta ixtisas təhsili müəssisələri (kolleclər), elmi-tədqiqat təşkilatları, könüllülər hərəkatları, təhsil müəssisələri daxilində tələbə elmi cəmiyyətləri və tələbə gənclər təşkilatları layihələr təqdim edə bilər.

Müsabiqənin qaydaları ilə www.riib.az internet saytında tanış olmaq mümkündür. Həmçinin (012) 488 01 50, (050) 600 01 50 telefon nömrələrinə və "150" çağrı mərkəzinə müraciət etmək olar.

## EXTENSION OF BID DEADLINE
### *The Republic of Azerbaijan*
### *Agricultural Competitiveness Improvement Project*

**Loan No: 8286-Az**
**Contract Title:**
**Reference No.** (as per Procurement Plan): A1/G-9

1. The Ministry of Agriculture of Azerbaijan Republic has received financing from the World Bank toward the cost of the Agricultural Competitiveness Improvement Project, and intends to apply part of the proceeds toward payments under the contract for support to inspection and state control by provision of instruments.

2. Agency for Agro Credit and Development under the Ministry of Agriculture/Agricultural Competitiveness Improvement Project now invites sealed bids from eligible bidders for purchasing support to inspection and state control by provision of instruments.

Delivery to Final destination Place:Azerbaijan Food Safety Institute, 72 C, Suleyman Sani Akhundov str., Baku city, Azerbaijan

Responsible person for receipt of goods: Elkhan Akhundov, Sector on the work with regional offices

Delivery period is 2-3 months following the date of contract signature.

Post-qualification requirements:

(a) If Bidder is Manufacturer:

(I) Financial Capability

The Bidder shall furnish documentary evidence that it is in a sound financial status:

1. The Bidder shall furnish documentary evidence that it meets the following financial requirement(s): The average annual turnover of the bidder for the last three years (2016-2017-2018) must exceed US$ 0.50 mln or equivalent; The averages of cash and cash equivalents at the beginning and end of year are positive in the last three years (2016-2017-2018); Zero (0) tax and social security liabilities.

2. The listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25% of required turnover.

(II) Experience and Technical Capacity

During the past three (3) years, the Bidder must have completed at least two (2) successful contracts involving the supply of similar goods - support to inspection and state control by provision of instruments.

Note: For Joint Ventures, listed requirements would apply to partners of the Joint Venture cumulatively. In addition, all members of the Joint Venture should have experience in required technical area and each member of the Joint Venture should fulfill at least 25% of required turnover.

(III) Documentary Evidence

The Bidder shall furnish documentary evidence to demonstrate that the Goods it offers meet the following usage requirement:

- Electrical equipment must meet the requirements of existing electric supply system of Azerbaijan - n/a
- All goods must fit for purpose - i.e. conform to required technical specifications specified in Section VII. Schedule of Requirements, Technical Specifications.

(b) If Bidder is not manufacturer:

If a Bidder is not a manufacturer, but is offering the Goods on behalf of the Manufacturer under Manufacturer's Authorization Form (Section IV, Bidding Forms), then the Manufacturer shall demonstrate the above qualifications (i), (ii), (iii) with the reservation set forth below, and the Bidder shall demonstrate that it has successfully completed at least 1 contract of similar goods in the past 3 years.

Reservation: in case of several manufacturers, each manufacturer should have experience in required technical area and should have annual sales of similar products at least twice exceeding the total price of his offered products for this bid. The requirement for annual turnover would apply to different manufacturers cumulatively. Each manufacturer should have experience in required technical are and should have the annual turnover at least twice exceeding the total price of his offered products for this bid. The requirement is not applicable to manufacturers accounting for less than 3% of the total bid price.

3. Bidding will be conducted through the National Competitive Bidding procedures as specified in the World Bank's Guidelines: Procurement of Goods, Works and Non-Consulting Services under IBRD Loans and IDA Credits&Grants by World Bank Borrowers January 2011 Revised July 2014 ("Procurement Guidelines") and is open to all eligible bidders as defined in the Procurement Guidelines. In addition, please refer to paragraphs 1.6 and 1.7 setting forth the World Bank's policy on conflict of interest.

4. Interested eligible bidders may obtain further information from Agency for AgroCredit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project,

Mr.AnarAzimov, a.azimov@akia.gov.az; anarazim@gmail.com; n.isgandarova@akia.gov.az, nargiz.acip@gmail.com; and inspect the bidding documents during office hours from 09.00 to 18.00 at the address given below.

5. A complete set of bidding documents in English may be purchased by interested eligible bidders upon the submission of a written application to the address below and upon payment of a nonrefundable fee of 200 AZN or equivalent. The method of payment will be bank transfer or direct deposit to the specified account number. The document will be sent by surface mail or courier for local delivery.

Beneficiary: Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project

Beneficiary's Tax ID: 1700428481

Beneficiary's bank: International Bank of Azerbaijan Open Joint Stock Company, Premier Customer Services Branch

S.W.I.F.T: IBAZAZ2X

Bank Code: 805250

Bank's Tax Code: 9900001881

Corr. acc: AZ03NABZ01350100000000002944 with Central Bank of Azerbaijan (for AZN)

Corr. acc: 36083186 with Citibank N.A, New York, NY; SWIFT code: CITIUS33XX (for USD)

Beneficiary's Account in AZN: AZ03IBAZ38090069449330335120

Beneficiary's Account in USD: AZ73IBAZ38190078409330335120

6. Bids must be delivered to the address below on or before **15:00 local time, August 09, 2019.** Electronic bidding will not be permitted. Late bids will be rejected. Bids will be publicly opened in the presence of the bidders' designated representatives and anyone who choose to attend at the address below on **15:15 local time, August 09, 2019.**

7. All bids must be accompanied by a Bid Security of: **4500USD**

8. The address(es) referred to above is(are):

**Agency for Agro Credit and Development under the Ministry of Agriculture of the Republic of Azerbaijan/Agricultural Competitiveness Improvement Project**
**For submission of bids: 3rd floor**
**For opening of bids: 3rd floor, conference room**
**Attn: Mr.AnarAzimov**
**Project Director**
**25E, Nobel Avenue, Baku White City Business Center AZ1025, Baku, Azerbaijan**
**Tel: (+99412) 5250117/3015**
**Email:** a.azimov@akia.gov.az; anarazim@gmail.com; n.isgandarova@akia.gov.az; nargiz.acip@gmail.com;
Web site: www.akia.gov.az

## *Argentinalı jurnalist Xalid AYAR:*
# "Azərbaycanı görməyə dəyər, möhtəşəm bir ölkədir"

Argentina Dövlət Televiziyasında yayımlanan "El Calamo" mədəni proqramının prodüseri və aparıcısı Xalid Ayar Azərbaycana səfəri barədə təəssüratlarını AZƏRTAC-la bölüşüb.

Jurnalist Azərbaycana ilk dəfə səfər etdiyini, xalqımızın qonaqpərvərliyinin, zəngin mədəniyyətimizin onda dərin təəssüratlar yaratdığını, bu səfərin davamlı olacağına ümid etdiyini bildirib. Qonaq azərbaycanlılarla argentinalılar arasında bir bənzərlik gördüyünü də qeyd edib - insanların üzündə xüsusi bir gülümsəmə, kömək istədiyin təqdirdə əllərindən gələni etməyə hazır olduqlarını bildirən ifadə.

"Azərbaycan haqqında buraya gəlməmişdən əvvəl də məlumatım var idi. Bizim Azərbaycanın Argentinadakı səfirliyi ilə yaxşı əlaqələrimiz var. Beşgünlük səfərim zamanı Bakıda diqqətimi çəkən əsas məqamlardan biri də şəhərin çox təmiz, hər şeyin çox səliqəli olmasıdır. Bu, inkişafın göstəricilərindən biridir. Daha bir məqam isə burada bütün dinlərə, millətlərə hörmətlə yanaşılması, tolerantlıqdır. Müxtəlif millətlərin, dinlərin nümayəndələrinin mehriban şəraitdə yaşamaları, dinlərarası dialoq mühiti mənim çox xoşuma gəldi. Mən bunu Argentinaya qayıdandan sonra xüsusi olaraq ictimaiyyətə çatdıracağam. Azərbaycan həqiqətən də çox gözəl, maraqlı bir ölkədir. Burada xeyli tarixi məkanlarda olduq. Bir sözlə, Azərbaycana gəlməyə, onun mədəniyyəti, tarixi, adət-ənənələri ilə tanış olmağa dəyər. Mən ölkəmə qayıdandan sonra televiziya kanalı ilə yanaşı, Youtube kanalı vasitəsilə də tamaşaçılara Azərbaycan, onun görməli yerləri ilə bağlı ətraflı məlumat verəcəyəm. Bundan başqa, onu da xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycanda təhlükəsizlik çox yüksək səviyyədədir. Turistlər üçün hər şey çox təhlükəsiz və rahatdır. Bəzi ölkələrdə küçələrdə senzura və ya oğurluqlar səbəbindən kameranı açmağa, çəkiliş aparmağa icazə verilmir, lakin Azərbaycanda belə hallarla üzləşmədik. Burada biz çox sərbəst şəkildə işləyə bildik və bizə heç kəs mane olmadı, bu, mənim üçün çox vacibdir. Mən buraya uruqvaylı alim xanım Susana Manqana ilə birlikdə gəlmişəm. O, Azərbaycana üçüncü dəfədir səfər etdiyini, hər səfərində də onu yaxşı mənada təəccübləndirəcək bir şeylə qarşılaşdığını bildirdi. Ölkənizə bir daha səfər etmək istəyirəm və düşünürəm ki, mən də eyni vəziyyətlə qarşılaşacağam. Burada söhbət etdiyim hər bir insandan müsbət enerji aldım", - deyə argentinalı jurnalist qeyd edib.

Azərbaycan ilə Argentina arasında informasiya sahəsində əməkdaşlıq barədə sualı cavablandıran qonaq bu əlaqələrin inkişafının önəmini qeyd edib. O, media nümayəndəsi kimi AZƏRTAC-ın fəaliyyəti ilə tanış olduğunu bildirib, agentliyin 8 dildə, o cümlədən ispan dilində xəbərlər yaymasının təqdirəlayiq olduğunu vurğulayıb. Jurnalist Argentinanın TELAM agentliyi ilə AZƏRTAC arasındakı əməkdaşlıq barədə məlumatlı olduğunu bildirərək qeyd edib ki, kütləvi informasiya vasitələrinin cəmiyyətdə çox mühüm yeri var, ölkələr arasında əlaqələrin inkişafında onlar böyük rol oynayır. Bu baxımdan TELAM ilə AZƏRTAC arasındakı əməkdaşlığın əhəmiyyətini xüsusi qeyd etmək olar.

# Rusiyanın hərbi gəmiləri Bakıya gəlib

Azərbaycanın Xəzər dənizindəki ərazi sularında "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsində iştirak etmək üçün Rusiya Hərbi Dəniz Donanmasının (HDD) Xəzər flotiliyasının "Mahaçqala" və "Volqodonsk" kiçik artilleriya gəmiləri iyulun 31-də Bakıya gəlib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Hərbi Dəniz Qüvvələrinin komandanı vəzifəsini icra edən 1-ci dərəcəli kapitan Zaur Hümmətov Rusiya HDD-nin Xəzər flotiliyasının nümayəndəsi 1-ci dərəcəli kapitan Sergey Yekimovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Tərəflər "Beynəlxalq Ordu Oyunları-2019" yarışları çərçivəsində keçiriləcək "Dəniz Kuboku" müsabiqəsinin təşkilinə dair fikir mübadiləsi aparıblar.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

*Yevlax şəhərində yerləşən "LALƏ-Tekstil" MMC-yə məxsus Nizamnamə itdiyi üçün etibarsız sayılır.*

# Beynəlxalq aləm

## Əfqanıstanda terror aktı

Dünən Əfqanıstanın Fərəh əyalətində baş vermiş partlayış nəticəsində 34 nəfər həlak olmuş, 17 nəfər yaralanmışdır. Ölənlər arasında uşaqlar və qadınlar var. Bu barədə "Pajvak" agentliyi xəbər verir.



Məlumata görə, partlayış Qəndəhar-Herat avtomobil magistralında baş vermişdir. Həmin yolda sərnişin avtobusu minaya düşmüşdür.

Əfqanıstan Daxili İşlər Nazirliyinin nümayəndəsi Muhibullah Muhibin dediyinə görə, yaralıların əksəriyyətinin vəziyyəti ağırdır. Bu terror aktına görə məsuliyyəti hələ ki heç bir təşkilat üzərinə götürməmişdir.

## Danimarka qaçqınları 2020-ci ildən qəbul edəcək

Danimarka BMT-nin təyin etdiyi kvotalar çərçivəsində qaçqınları qəbul etməyə hazırdır. Bu barədə jurnalistlərə ölkənin İmmiqrasiya və İnteqrasiya naziri Mattias Tesfayye məlumat vermişdir.




Nazirin dediyinə görə, Danimarka hökuməti BMT-nin Qaçqınların İşi üzrə Ali Komissarının İdarəsinə müvafiq sorğu göndərmişdir.

Tesfayye bildirmişdir ki, 2020-ci ildən başlayaraq Danimarka hər il 500 qaçqın qəbul etməyə hazırdır.

İyunun 5-də ölkədə keçirilmiş parlament seçkilərində solçu partiyalar bloku qələbə qazanmışdır. Bundan sonra Danimarkada sosial-demokratlar hökuməti formalaşdırılmışdır. Hazırda ölkədə əcnəbilər üçün tətbiq olunan sərt qaydalar yumşaldılır.

## Hindistanda 216 nəfəri sel aparıb

Hindistanda musson yağışlarının törətdiyi daşqınlar nəticəsində həlak olanların sayı 216 nəfərə çatmışdır. Bu barədə "Hindustan Times" qəzeti xəbər verir.

İyul ayının əvvəlindən ölkənin şərqində və şimal-şərqində leysan yağışları səngimir. Daşqınlar nəticəsində Bihar ştatında 130, Assam ştatında 86 nəfər həlak olmuşdur.

Hindistan hökumətinin bildirdiyinə görə, Bihar ştatının 13 rayonunda 8,8 milyondan çox adam təbii fəlakətin mənfi təsirini hiss etmişdir.

Leysan yağışları Assam ştatının 864 kəndində daşqın yaratmışdır. Ştatdan 30925 nəfər təxliyə olunaraq düşərgələrdə yerləşdirilmişdir.

## Türkiyə qeyri-leqal miqrasiyaya qarşı uğurlu mübarizə aparır

Türkiyədə 2016-cı ildən bəri keçirilmiş əməliyyatlar çərçivəsində 795875 qeyri-leqal miqrant və 18775 insan alverçisi saxlanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir. Məlumata görə, 4883 insan alverçisi sonradan həbs olunmuşdur.

Qeyri-leqal miqrantlar digər ölkələrə getmək üçün Türkiyə ərazisindən keçirlər. Türkiyənin təhlükəsizlik qüvvələri narkoticarət və terrorçuluqdan sonra ən çox qazanc gətirən cinayət - qeyri-leqal miqrasiya ilə mübarizə üçün bütün mövcud imkanlardan istifadə edir. Ölkənin hüquq mühafizə orqanları nümayəndələri qeyri-leqal miqrasiya ilə mübarizə çərçivəsində digər ölkələrdəki həmkarları ilə fəal əməkdaşlıq edirlər.

Bu ilin əvvəlindən təhlükəsizlik qüvvələri 177654 qeyri-leqal miqrantı insan alverçilərindən xilas etmişlər. Əməliyyatlar zamanı 4542 insan alverçisi saxlanmış, onlardan 927-si həbs olunmuşdur.

## KXDR yeni ballistik raketləri sınaqdan keçirdi

Dünən səhər Koreya Xalq Demokratik Respublikasında (KXDR) yeni ballistik raketlərin sınağı keçirilmişdir. Yerli vaxtla saat 05:06-da və 05:27-də buraxılan mərmilər kiçikmənzillidir.

Bu barədə cənubi koreyalı hərbçilər məlumat verib. "RİA Novosti" agentliyinin xəbərinə görə, sınaqlar Vonsan şəhəri yaxınlığında qeydə alınmışdır. İki raket şimal-şərq istiqamətində buraxılmışdır. Onlar 240 kilometrdən 330 kilometrədək məsafə qət etdikdən sonra Yaponiyanın ərazi sularına çatmayaraq dənizə düşmüşdür. Bundan əvvəlki sınaq iyul ayının 25-də keçirilmişdi.

ABŞ və Koreya Respublikası birgə təlimləri davam etdirdikdən sonra KXDR iki idarə olunan kiçikmənzilli raket buraxmışdır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin komissiya sədri, Respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

İlqar Fərzəliyev və Milli Məclis Aparatı Dövlət qulluğu və kadr məsələləri şöbəsinin əməkdaşları Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclis Aparatı Analitik informasiya şöbəsinin müdiri Aydın Ağayev və şöbənin əməkdaşları R.İsaqov, İ.Həsənov, A.Əkbərov, S.Abdullayeva, L.Həsənova, M.İbrahimli, G.Səfərəli və M.Mirkişiyeva Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Kürdəmirdən Müseyib Bayramov Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Məhəmməd Kazımova qardaşı

**KAZIM KAZIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin Mətbuat xidmətinin əməkdaşları Milli Məclis Aparatı Dövlət quruculuğu üzrə qanunvericilik şöbəsinin müdiri Hacı Mirhəşim Seyidə əzizi

**ORMAN MİRYUSİF OĞLU SEYİDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Sumqayıt Şəhər Məhkəməsinin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Fuad Məmmədova anası

**VƏZİFƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8984
Sifariş 2499
Qiyməti 40 qəpik